# Qərbin sonu

**İslam İnqilabının Böyük Rəhbərinin kapitalizm quruluşu haqda sözlərindən seçmələr**

**Tərtib edən: Məhəmmədhüseyn Himməti nejad**
**Tərcümə edən: Əlirza Sərablı**

Bir neçə il öncə Çikaqoda bir hərəkət baş verdi və oraya ordu yeritdilər. Zənnimcə Klintonun dövrü idi; Buşdan öncəkilərin hakimiyyəti dövrü. Heç nədən çəkinmirlər, ordu yeridib xalqı əzirlər, vururlar, öldürürlər, ağır həbsxanalara salırlar. Bu hərəkət yatırıla bilər, amma məhv olmayacaq, kül altındakı od kimi qalıb bir gün elə şölələnəcək ki, hegemonluğun və kapitalizmin bu saman binasını yandırıb kül edəcək.

Kerman vilayətinin universitet tələbələri ilə görüşdəki çıxışdan: 2011.

# Birinci fəsil

## Kapitalizm quruluşunun cəmiyyətə, xalqlara və hökumətlərə baxışı

### Birinci bölmə: Kapitalizm quruluşunun mahiyyəti Hegemonluq ruhu

Bu gün təəssüf ki, bütün dünya hegemon qrupların əməlləri ilə doludur. Onların hamısının başında Amerika durur. Dünyanın o başında yerləşən bir dövlətin bölgə xalqlarının mənafeyinə rəğmən, öz maraqlarını təmin etmək üçün özünə haqq verməsi hegemon ruhdur, başqa bir şey deyil. Bir dövlət qarşısına çıxan hər hansı bir dövlətə açıq-aşkar şəkildə və heç bir xəcalət çəkmədən "Mən səni devirərəm" deməkdə özünü haqlı bilir. Bu, hegemonluq ruhudur. Bu gün Amerika Latın Amerikası ölkələrinin çoxuna və dünyanın digər ölkələrinə qarşı bu işi görür. Hegemonluğun cavabı olmadığına, maraqları təhlükəyə düşdüyünə və o dövlətin süqutu ilə daha yaxşı təmin olunduğuna görə bu mövqeyi seçir.

13 Aban (4 Noyabr) ərəfəsində tələbə və şagirdlərlə görüşdəki çıxışdan: 1989.

### Kapitalist quruluşların mahiyyəti və xisləti

Bugünkü dünyada insan yanlış mədəniyyət və sistemlərlə, ayrıseçkilik və ədalətsizliklə mühasirə olunub. Ədalətsizlik dünyanın hakim ənənəsi və şüarı liberal-demokratiya olan Qərb kapitalizminin mahiyyəti və xislətidir.

Avropada təhsil alan tələbələrin İslam birlikləri ittifaqının üzvləri ilə görüşdəki çıxışdan: 2009.

**Amerikanın xarici siyasətləri sayəsində kapitalizm quruluşunun əsl simasının ifşa olunması**

Amerikalılar Əfqanıstana hücum etməklə ziyana uğramışlar. Onlar burada öz hərbi məqsədlərinə çatsalar da, çatmasalar da, iki əsas ziyana uğramışlar. Onların biri amerikalıların özlərinə məxsusdur, biri də bütün Qərb dünyasının Amerika ilə müştərək olduğu ziyanadır. Amerikanın özünün və Qərb dünyasının müştərək surətdə düçar olduğu əsas ziyan budur ki, Qərb liberalizminin siması növbəti dəfə ifşa olundu. Dünyada Qərb liberal-demokratiyası haqda bu qədər fəxrlə danışır və deyirlər ki, Qərbdə azadlıq, sivilizasiya, demokratiya və xalqın səsinə hörmət vardır. Bəli, dil yumşaq yerdir və onu istədikləri kimi fırlada bilirlər. Lakin sınaq mərhələsində kimin nə karə olduğu bilinir.

Əfqanıstan Qərb liberalizmi üçün yeni sınaq meydanına çevrildi. Bu onu göstərdi ki, bunlar hegemon maraq və istəklərinin tələb etdiyi yerdə heç bir işdən çəkinmir və heç bir səbəb olmadan bir ölkəni və xalqı qanına qəltan edirlər.

Buna əsasən, Qərb liberalizminin siması növbəti dəfə ifşa olundu; bəlli oldu ki, göstərdikləri gül dəstəsinin altında çomaq gizlətmşlər; bu ətirli, qalstuklu və səliqəli görkəmlərinin arxasında qorxunc bir sima gizlənmişdir; dünya bunu anlamışdır.

İsfahan xalqının böyük toplantısındakı çıxışdan: 2001.

## Böyük güclərin xalqlardan bac alması

Dünyaya hegemon sistem hakimdir. Dünyada ölkə və xalqları istismar etmədən yaşaya bilməyən güclər var; hakimiyyət və iqtidarları xalqlara pəncə atmaqdan, işlərinə müdaxilə etməkdən, hökumətlərini ələ keçirməkdən, sərvətlərindən istifadə etməkdən və öz məhsullarını onların bazarına çıxarmaqdan asılıdır. Təəssüf ki, bu sistemdə hər hansı bir xalq və hökumət bac vermədən müstəqil yaşamaq istəsə, həmin böyük güclər onun qarşısında dayanırlar.

Təhlükəsizlik Nazirinin, nazirlik əməkdaşlarının, hərbi və polis qüvvələrinin Təhlükəsizlik şöbəsinin şəxsi heyətinin beyət mərasimində çıxışdan: 1989.

## Digər ölkələrin işlərinə müdaxilə etmək üçün qərblilərin dəlili

Bu gün Amerika dövləti beynəlxalq güc piramidasının başında durur. Hər biri öz iqtidarına, imkanına, puluna, elminə və qüdrətini formalaşdıran digər elementlərin miqdarına görə onun kənarında və əlinin altında dayanan digər dövlət və güclər dünyanın bir hissəsinə hakimdirlər və bu gün bir-biri ilə həmkarlıq edən məcmunu təşkil edirlər. Bu güclər məcmusu bir dövlətin və xalqın meydana çıxıb onların qüdrət boyunduruğundan azad yaşamaq istədiyini görmək, qəbul etmək, yaxud eşitmək istəmirlər. Onlar üçün bir xalqın müstəqilliyi bir söyüş kimidir. Buna görə də dözmürlər. Əgər bir xalq "bizim işimizə qarışmayın" – desə, sanki onlara söyüş vermişdir.

Onlar dünya xalqlarının bütün işlərinə müdaxilə etməyi öz haqları bilirlər. Bir yerə müdaxilə edib deyirlər ki, burada demokratiya yaratmaq istəyirik; bir yerə

müdaxilə edib deyirlər ki, solçu təfəkkürlərin qaşısını almaq istəyirik; bir yerə müdaxilə edib deyirlər ki, təhlükəsizliyi təmin etmək istəyirik; bir yerə müdaxilə edib deyirlər ki, burada bizim maraqlarımız təhlükəyə düşmüşdür. Onlar özlərini dünyanın sahibi bilirlər. Sanki xalqların və dövlətlərin demokratiyasını təmin etmək onların vəzifəsidir. Bu gün Amerika və onun ətrafındakı dövlətlər belə bir məğrur, təkəbbürlü və axmaq xəyala düşmüşlər.

Ordunun Hərbi Hava Qüvvələrinin komandanı və şəxsi heyəti ilə görüşdəki çıxışdan: 1990.

**Başları daşa dəysə**

Beynəlxalq hegemonluq maraqlarını təmin etməyin normal, qanuni və ənənəvi üsullarından istifadə etməyə ehtiyac duymur. Hamı öz maraqlarına görə hərəkət edir, lakin bunun yolu vardır. İnsan gedib bir şey verir və bir şey alır; müzakirə aparır və imtiyaz verir. Amma bunlar bu qanunlara əməl etmək istəmirlər; hərbi donanma göndərirlər, hegemon sistemin maraqlarının tələb etdiyi yerə güc yeridirlər. Əgər bu maraqlar azca təhdid olunsa, bacardıqları təqdirdə Əfqanıstanda etdikləri işi edirlər; heç bir problemsiz, maneəsiz və əngəlsiz. Əsla fikirləşmirlər. Yalnız başları daşa dəyəndə dayanırlar. Belə olmadıqda isə qarşılarında heç bir maneə görmür və hiss etmir, heç bir şeyə ehtiyac görmürlər. Amerikaya geyirlər ki, siz Əfqanıstana hücum edəndə Təhlükəsizlik Şurasından icazə aldınızmı? Möhtərəm nazirləri müsahibəsində deyir ki, Təhlükəsizlik Şurasına ehtiyac yoxdur.

Siz iddia edirsiniz ki, Nyu-Yorkdakı əkiz qüllələrinizi filankəs, yaxud filan qrup və ya təşkilat hədəf seçmiş, məhv etmiş və dağıtmışdır; bunun üçün kiməsə

dəlil, fakt və sənəd göstərmisinizmi? Deyirlər ki, sənəd göstərməyə ehtiyac yoxdur. Bu, beynəlxalq miqyaslı diktatura deməkdir. Xalqlar öz ölkələrinin diktatorları ilə mübarizə aparıb canlarını verirlər ki, diktaturanı məhv edib xalq hakimiyyəti qursunlar. Sonra həmin xalq öz daxili işlərində Amerika kimi əcnəbi bir ölkənin beynəlxalq diktaturasını qəbul etməyə məcbur olsun?!

İsfahan vilayətinin gəncləri ilə görüşdəki çıxışdan: 2001.

## Sərvətli təşkilatların Amerikada hökmranlığı hər yerdən çoxdur!

Bu gün dünyada istismarçılığın mərkəzi çox təhlükəli və çox rəhmsiz təşkilatlardır. Onlar bütün dünyadakı kartel və trestlərin - iqtisadi şirkət və korporasiyaların məcmusunu təşkil edirlər. Amerika hökumətinə ən çox hakim olan da bunlardır. Biz Amerikanı hegemonçu bir hökumət bilirik; beynəlxalq hegemonluq dedikdə hamının təsəvvüründə Amerika hökuməti canlanır. Bu ona görədir ki, dünyanın sərvətli, mənfəətpərəst və hökmranlığa can atan hegemon qurumlarının Amerikada hökmranlığı hər yerdən çoxdur və o dövlətin bütün elm, silah və siyasət vasitələri xalqların istismarı yolunda işlədilir.

Ərak əhalisinin böyük toplantısındakı çıxışdan: 2000.

## Qərb kapitalistlərinə kömək üçün məhrumlara yardım etmək

Quranın "Bis istəyirik ki, yerdə zəif düşüb əzilənlərə mərhəmət göstərək, onları öndə gedənlər və varislər edək" ayəsinə əsasən, insan başa düşür ki, ilahi dinlərin ümumi

hərəkəti məzlumluğu və məhrumluğu aradan qaldırmağa istiqamətlənmişdir. İslamı və din bayrağını müxtəlif mədəniyyət, sivilizasiya, ideologiya və məktəblərin bayraqlarından tam ayıran cəhət budur: məhrum təbəqə üçün çalışmaq. Bu gün kapitalizm dünyasının və beynəlxalq hegemonluğun istisması altında olan ölkələrdə hərəkət pulluların və kapitalistlərin inkişafı istiqamətindədir, məhrum təbəqələr barədə fikirləşmirlər də. Nə zamansa məhrumlara bir yardım olunursa da, pulluların və kapitalistlərin xeyrinə istifadə etməkdən ötrü olunur. Kapitalist-imperialist dünyasının bugünkü iqtisadiyyatının əsası budur.

Kürd şəhərinin idman stadionunda Çahar-Mahal və Bəxtiyari vilayətinin əhalisi ilə görüşdəki çıxışından: 1992.

**Qərblilərin elmi - xalqların müstəmləkəsi üçün vasitə**

Qərbdə elmi inkişaflar vardı, lakin bu inkişaflar digər xalqları istismar etmək üçün bir vasitə olmuşdu. Qərblilər elmi güc əldə edən kimi onu siyasi və iqtisadi gücə çevirib dünyanın şərqinə və qərbinə sarı yola düşdülər. Haraya çəng atmaları və istismar etmələri mümkün olan bir ölkə vardısa, əldən çıxarmadılar. Harda etmədilərsə, deməli, mümkün deyildi.

Tehranın cümə namazı xütbələrindən: 2000.

**Elm və incəsənətin Qərb milyonçularının xidmətində durması**

Bu gün dünyada nə elm insan yüksəlişinin xidmətindədir, nə incəsənət, nə də başqa şey. İncəsənətin bir nümunəsi kinodur. Dünya kinosunun zirvəsi Hollivuddur. Dünyanın bu sənət ocaqları bəşəri əxlaqa,

insan mənəviyyatına və insana ümid verməyə nə qədər kömək edir?! Məsələ əksinədir. Sıfır demək olmaz, sıfırdan da bir qədər aşağıdır. Onlar əxlaqi təməlləri, düşüncə təməllərini və bəşəri yüksəlişi məhv edirlər. Bu gün dünyada incəsənət insan yüksəlişinin xidmətində durmur. Elm də belədir. Elm kapitalizmin xidmətindədir, milyonçuların xidmətindədir. Bəşəri elm bu gün nəhəng iqtisadi korporasiyaların sahiblərinə xidmət edir; müharibələri bunlar başladırlar, insanları bunlar öldürürlər, kütləvi qırğınları bunlar törədirlər. Elm bunlara xidmət edir. Elm məhrum Əfqanıstan xalqına xidmət etmir. Əfqanıstana gedən elm başlarına bomba yağdıran təyyarədir. O zaman İraqa gedən elm Hələbçəni o günə salan kimyəvi silahlardır. Bu bölgələrdə elm belədir; Qərb ölkələrinin özündə də belədir. Bəli, bir qrupun, bir azlığın sərvətini artırmışdır; o sərvətin özü elmin inkişaf etməsinə bais olmuşdur. Amma elm ayrıseçkilik, ictimai bərabərliyin pozulması və cəmiyyətlərin geriliyi üçün də vasitə olmuşdur. Biz bunu dəyişməliyik.

Kermanşahın elm adamları və görkəmli şəxsiyyətləri ilə görüşdəki çıxışdan: 2011.

## Xalqların kimlik və izzətini məhv etmək bahasına onların mənafeyinə təcavüz

Bu gün də başqa bir dövrdür. Beynəlxalq istismarçılar və təcavüzkarlar başqa bir yolla dünyanın hansısa bir nöqtəsinə əl uzadıb öz qanunsuz maraqlarını təmin etmək barədə düşünürlər; xalqların kimliyini və izəttini məhv etmək bahasına olsa belə. Müşahidə etdiyiniz kimi, bu illərdə dünyanın müxtəlif yerlərində, xüsusən də bu regionda sözügedən işləri görürlər.

Əsəluyə əhalisi və neft sənayesinin işçiləri ilə görüşdəki çıxışdan: 2011.

### Kapitalizm quruluşunun fəhləyə malik olması

İslamda fəhlə və sahibkarın rabitəsi iki düşmən rabitəsi deyil, iki həmkar rabitəsidir; istismarçılıq da deyil; yəni sahibkar fəhlənin ağası sayılmır. Qərbin kapitalizm quruluşunda işin sahibi sahibkardır; məsləhət üçün və işini əldən verməməkdən ötrü onun fəhləyə bir imtiyaz verməsi də mümkündür. Amma rabitə belədir; o, bir alət kimidir; onun fəhləyə baxışı bir insana deyil, bir maşına baxış kimidir. İslam bunu qətiyyətlə rədd edir.

Fəhlələrlə görüşdəki çıxışdan: 2006.

## İkinci bölmə: Kapitalizm quruluşunun məqsədləri

### Amerika hökumətinin məqsədi: beynəlxalq imperatorluq yaratmaq

Amerika hökumətləri və hamısından çox bu ifratçı, radikal və aqressiv hökumət dünyada bir imperatorluq yaratmağa çalışır; beynəlxalq bir istismarçılıq yaratmağa çalışır. Bu istismarçılıq yalnız Orta Şərqə məxsus deyil. Düzdür, indi Orta Şərq məsələsi gündəmdədir, lakin bunlar Orta Şərqlə qane olmurlar. Avropalı şərikləri də bunu yaxşı bilirlər ki, Amerika Orta Şərqə, Mərkəzi Asiyaya və dünyanın digər həssas bölgələrinə hakim olduqdan sonra hətta Avropadan da əl çəkməyəcək. Bu onlara gizli deyil. Onlar öz maraqlarını güdürlər. Ən mühüm regionlardan biri Orta Şərqdən ibarətdir; həssas bölgə, şərq və qərb arasında körpü, neft zonası, çox həssas su keçidlərinin və boğazlarının yerləşdiyi məntəqə, mədəni tarixə malik olan xalqlar, çoxlu sərvətlər, ehtiyatlar; bunların hamısı bu regionda toplanmışdır.

Dünyaya hökmranlıq etmək üçün Amerika hökumətinin bunlara ehtiyacı var.

Tehranın cümə namazı xütbələrindən: 2005.

**Dünyanın bütün imkanlarını ələ keçirmək**

Bu gün dünyanın qüdrətli bir hissəsi dünyanın və yer üzünün bütün imkanlarını fəth edib ələ keçirməyi çox istəyir. "Böyük güc" sözünün mənası həmişə bu olmuşdur. Böyük güclülüyün bir böyük gücdə inhisarı təbii olaraq bu meyli gücləndirir və artırır. İqtisadi qurumlar məcmusunun, qazanc əldə etmək və sərvətlərini artırmaq istəyən, ölkələrin və dünyanın iqtisadiyyatını formalaşdırmaqda aktiv olan mərkəzlərin və biznes təşkilatlarının işi təbii olaraq bunu tələb edir və bunun ardınca zəbt etmək istəyi yaranır. Bu gün bu açıq şəkildə deyilir və gizlədilmir. İstismarçı güclərin dünyanın hər bir nöqtəsində öz maraqlarını təmin etməyə çalışmaları elə bir şey deyil ki, bu gün kimsə onu gizlətsin və məxfi saxlasın. Təmin olunması qərara alınan və filan böyük gücə aid olan maraqlar - əlbəttə, yalnız Amerikanı demək istəmrəm. Amerika onların ən üstünü və ən gözləntili olanıdır. Bu, Amerikanın başda durduğu bir birlikdir - elə maraqlar deyil ki, ölkələrin, xalqların və məmləkət sahiblərinin maraqları ilə ziddiyyət təşkil etməsin; onlar üçün belə bir xüsusiyyət qeyd etməyiblər; deyirlər ki, bizim maraqlarımız. Əgər bu maraqlar filan xalqın, filan ölkənin, yaxud filan regionun maraqları ilə ziddiyyət təşkil etsə necə? Onlar demirlər ki, ziddiyyət təşkil etsə, biz öz maraqlarımızdan imtina edərik. Xeyr, maraq maraqdır. Onlar onu istəyirlər.

Bu gün dünyada bu hegemonçu istəyin - həqiqətən hegemonluq sözünün yeri buradır - nəticəsi olaraq

müxtəlif sahələri - əsasən iqtisadiyyat, siyasət və mədəniyyət sahələrini zəbt etmək üçün yamaca sarı axan dağıdıcı sel kimi yuxarıdan sürətli hərəkət başlanmışdır. Bu sel axmışdır və bu ilə, ötən ilə də aid deyil.

İslam Şurası Məclisinin Rəyasət Heyəti və deputatlarla görüşdəki çıxışdan: 2002.

## Amerikanın marağı: Nəyin bahasına olursa-olsun birqütblü dünya yaratmaq

Qəti olan budur ki, beynəlxalq istismarçı bir sistem mövcuddur və onun başında Amerika rejimi durur. Keçmişdə digərləri olub, gələcəkdə də digər qüvvələrin olması mümkündür. Bu gün Amerika dünyada özünə maraqlar tərif etmişdir; gizli də deyil, məqalələrdə yazmışlar, siyasi təhlillərdə demişlər. Onların marağı birqütblü dünya yaratmaqdan ibarətdir. Yəni dünya ölkələrinin başında Amerika adlı bir dövlət, ondan aşağıda isə bəziləri elmi gücə, elmi inkişaflara və hərbi iqtidara malik olan müxtəlif dövlətlər durur; onlarla birtəhər keçinmək və ziddiyyət yarandıqda onların maraqlarını önə keçirmək lazımdır. Bu, Amerika təhlilidir. Hərbi, yaxud iqtisadi gücə malik olmayan dövlətlər də var. Onlara ad qoymuşlar: inkişaf etməkdə olan ölkələr, yaxud üçüncü dünya ölkələri. Amerikanın iqtidarını artırmaq üçün bunların bütün imkanlarından istifadə etmək lazımdır; əgər onların enerjisinə - neft və qazına ehtiyacımız varsa, hansısa bir yolla onları ələ keçirmək lazımdır; əgər onların bazarına ehtiyacımız varsa, mümkün şəkildə bazarlarına yol tapmaq lazımdır; əgər onların arasında siyasi və iqtisadi güc saxlamağa ehtiyac varsa, bu yolu açmaq lazımdır; əgər həmin ölkələrdə maneçilik yaradan hökumətlər iş başındadırlarsa, onları kənarlaşdırmaq

lazımdır; əgər o ölkələrdə maneçilik yaradan düşüncələr varsa, o düşüncələri cəmiyyətin zehnindən silmək lazımdır; əgər o ölkələrdə satlıq şəxsiyyətlər varsa, onları almaq lazımdır; əgər o ölkələrdə bu siyasətə qarşı çıxan hökumətlərin əleyhinə təzyiq vasitəsi kimi istifadə edilməsi mümkün olan qüvvələr varsa, pul xərcləyib onları işlətmək lazımdır. Bu, hegemonluğun siyasətidir. Bu gün Amerika bu siyasəti aparır.

Ərdəbil vilayətinin gəncləri ilə görüşdəki çıxışdan: 2000.

**Qloballaşmanın gözəl adı - xalqların inkişafı üçün bir ilğım**

Qloballaşma çox qəşəng addır və hər bir ölkə dünya bazarlarının onun üzünə açılacağını düşünür. Lakin Qərbin kapitalizm maşınında bir bolt-qaykaya çevrilməkdən ibarət olan qloballaşma heç bir müstəqil xalq tərəfindən qəbul olunmamalıdır. Əgər qloballaşmanın sözün həqiqi mənasında gerçəkləşməsi nəzərdə tutulursa, onda ölkələr özlərinin iqtisadi və siyasi müstəqilliklərini və qərar güclərini qorumalıdırlar. Əks təqdirdə, on illər öncədən Amerikanın və hegemonluğun alətləri olan Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Ümumdünya Ticarət Təşkilatı və bu kimi orqanlarla vücuda gələn qloballaşmanın dəyəri yoxdur. Buna əsasən, mühüm bir prinsip istiqlaliyyət məsələsidir. Əgər bu olmasa, inkişaf yoxdur, inkişafın ilğımı var.

Kürdüstan vilayətinin müəllim və tələbələri ilə görüşdəki çıxış: 17 may 2009.

## Xalqlarla mübarizə aparmaq üçün təxribat büdcələrinin ayrılması

Amerika rejimi elə bildi ki, böyük, başıuca və müsəlman İranda təxribat yaratmaq üçün bir qədər büdcə - 20 milyon yox, 200 milyon dollar, 2 milyard dollar ayırmaq bizim ölkəmizi təcrid halına salacaq. Lakin bilmədən və anlamadan özü təcrid halına düşdü.

Bunlar elə bildilər ki, dünyanın ictimai rəyi bu hərəkətin nə qədər axmaq və rüsvay olduğunu anlamır. Lakin dünyanın ictimai rəyi bu işi pislədi və zaman ötdükcə daha çox pisləyəcək. İndi həqiqəti anlayıb peşman olmaları və bunu unutdurmaq istiqamətində işlər görmələri mümkündür. Lakin biz qoyarıqmı?! Məgər biz Amerikanın bu rüsvayçılığının unudulmasına imkan verərik?! Bütün dünya və bütün gələcək nəsillər bilməlidirlər: bir zaman Amerika rejiminin həyasızlığı elə bir həddə çatmışdır ki, azad bir dövlətə və iqtidarlı bir xalqa qarşı açıq şəkildə təxribat büdcəsi qəbul etmişdir. Bir hökumətin beynəlxalq münasibətlərdə görə biləcəyi ən çirkin və ən qınaqlı iş budur. Amerika rəsmiləri elə bilirlər ki, dünya onların diktaturasına təslim olacaq. Bu xəyal onlar üçün çox ziyanlı səhv olacaq. Əlbəttə, bu gün onların başları özlərinin adi insani qaydalardan uzaq olan seçki mubarizələrinə qarışıb, məst olmuşlar və nə etdiklərini anlamırlar. Toz-duman bir qədər yatandan sonra hansı qələti etdiklərini anlayacaqlar. Elə bilirlər ki, dünya onlara təslim olacaq. Lakin böyük səhv edirlər.

İmam Mehdinin (ə) mübarək doğum günündə xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 1996.

## İstismarçı sistemin dünya miqyasında hegemonluğu və inhisarçılığı

Nə liberal, nə də demokartik, əslində hegemonçu və beynəlxalq müstəmləkəçi quruluş olan liberal-demokratiya üçün, sionist kompaniyaları, onların şərikləri və müttəfiqləri üçün əsas məsələ öz güc mərkəzlərindən tam inhisarçı şəkildə beynəlxalq maraqların bütün əsas mərkəzlərinə nəzarəti ələ keçirməkdən başqa bir şey deyil. İnqilabı inhisarçılıqda ittiham edirlər; ona görə ki, inqilab onların inhisarçılıq yolundan götürülsün. Dünyanı beynəlxalq kənd kimi təqdim edirlər ki, bu kəndin kəndxudalığını ələ keçirsinlər. Mədəni birlik və mədəni qloballaşma şüarı verirlər ki, öz mədəniyyətlərini dünyanın bütün mədəniyyətlərinə hakim etsinlər. Özlərinə aid məsələlərdə, Qərb mədəniyyəti sahəsində, istismara şərait yaradan ənənələrdə beynəlxalq miqyasda heç kəsə ən kiçik irad bildirmək icazəsi belə vermirlər. Lakin sizdən istəyirlər ki, öz mədəniyyətinizdə, inamlarınızda, duyğularınızda və prinsiplərinizdə plüralizmə inanasınız, imanınızda, düşüncənizdə, mədəniyyətinizdə, möhkəm etiqadi məsələlərinizdə hər kəsin öz təsəvvürünə uyğun danışmasına, fikir bildirməsinə icazə verəsiniz. Özləri barəsində isə belə bir şeyə icazə vermirlər. Heç kəsin icazəsi yoxdur ki, dünya səviyyəsində Amerika maraqlarına dair plüralist baxışı olsun. Harada maraqları tələb etsə, qətiyyətlə müdaxilə edirlər. Əgər “hansı əsasla daxil oldunuz?” - deyə soruşsalar, onun üçün bir elmi əsas da düzəldirlər. Bundan bir neçə gün əvvəl deyildi ki, Amerika konqresinə bir layihə verilib. Buna əsasən, bu ölkənin prezidenti özünün dünyanın hər hansı nöqtəsində olan müxaliflərini terror etməyə haqlı olur. Əgər bunun səbəbini soruşsalar, onun üçün dəlil göstərirlər; Amerika

maraqlarını təmin edən dəlil. Lakin məndən və sizdən istəyirlər ki, biz də o əsaslandırmaya həmin gözlə baxaq, bütün vücudumuzla və bütün imanımızla onu qəbul edək. Bundan artıq hegemonluq ola bilərmi?!

Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdəki çıxışdan: 2001.

## Üçüncü bölmə

## Kapitalist quruluşun siyasi, iqtisadi və mədəni işləri

### Qloballaşmanın məqsədi: xalqların amerikalıların maraqlarını təmin edən vasitə və alətlərlə çevrilməsi

Bu gün Qərb nəzəriyyəçiləri və təbliğatçıları Qərbə qayıdış, Qərbin hökmranlığına qayıdış xəttini yenidən bərpa etmək istəyirlər. Qeyd etdiyim kimi, ziyalılığa bənzər bir nəzəriyyə və yeni bir söz adı altında qloballaşma və mövzuları dəyişdirmək nəzəriyyəsini ortalığa atırlar. Deyirlər ki, bu dövrün tələbəsi daha müstəmləkə əleyhinə mübarizə dövrünün tələbəsi ola bilməz. Deyirlər müstəmləkəyə və hegemonluğa qarşı çıxmaq dövrü, hegemonluğa ölüm oxumaq dövrü bitmişdir; ədaləti bərpa etmək, kapitalizmlə mübarizə aparmaq dövrü bitmişdir; amalçılıq, siyasi təvəlla və təbərra dövrü bitmişdir. Yeni tələbə mövzusu beynəlxalq mövzulardan - qloballaşmadan, realizmdən, yeni dünya birliyinə qoşulmaqdan, yəni Amerika ordusunun piyadası olmaqdan ibarətdir. Bu qloballaşmanın adı qloballaşmadır, əslində isə amerikalaşmadır. Mənası budur ki, İran xalqı çəkdiyi bütün zəhmətlərə rəğmən, qələbə qüllələrinə sancdığı bayraqlara rəğmən, müsəlman xalqlarda vücuda gətirdiyi əzəmətli oyanışa rəğmən, inqilabdan əvvəlki dövrdə olduğu kimi yenidən amerikalıların ordusunun piyadası, onların maraqlarının təminatçısı olsun. Məqsəd bundan başqa bir şey deyil. Lakin qloballaşma, yenilik və inkişaf kimi gözəl adlar altında bu məqsədi gizlətmək istəyirlər.

Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdəki çıxışdan: 2001.

## Kapitalist maraqları qorumaqdan ötrü xalqlar üçün qovluq açmaq

Bunların İslama dair ekspertləri və mütəfəkkirləri var; oturub araşdırırlar, müxtəlif xalqlar, düşüncələr, ruhiyyələr və məzhəblər barəsində qovluqlar hazırlayırlar, özlərinin tədqiqat, mədəniyyət, kəşfiyyat və siyasət mərkəzlərində həmin arxivlənmiş qovluqları yenidən araşdırır və yeni tədqiqat işləri görürlər. Eşidirik ki, İsraildə "İranda İslam və Şiəlik" adlı seminar keçirilir; bu, həmin işlərdəndir. Dünyanın bir çox yerlərində Qərb dünyasının, kapitalizmin və hegemonluğun vasitəsi ilə seminarlar və tədqiqat məclisləri təşkil olunur, İslama yenidən baxış üçün müxtəlif nəzəriyyələr irəli sürülür. Hegemonluq bütün varlığını mütəfəkkircəsinə öz məqsədi yolunda işlədir, düşüncə ilə hərəkət edir və özünü qorumaq üçün qlobal hadisələri idarə edir. Bilir ki, fikirləşməsə, gələcəyi proqnoz etməsə və statistikası olmasa, zərbə görəcək. Ən yüksək və ən peşəkar düşüncə mərkəzləri hegemonluğun ixtiyarındadır. Bunlar 15-20 il öncədən kapitalizmin uzunmüddətli məsələləri barədə düşünmüş və planlar cızmışlar ki, gələcəkdə nəticə götürsünlər.

Qum Elmi Hövzəsinin müəllim və tələbələrinin nümayəndə heyəti ilə görüşdəki çıxışdan: 1989.

## İyirmi bir faizlik demokratiyanın legitimliyi

Əgər legitimlik meyarı xalqın əksəriyyətinin səsindən, yəni səs sahiblərinin əksəriyyətinin səsindən ibarətdirsə, deməli, Amerika hökuməti və onun bu prezidenti legitim deyil; çünki əksəriyyət yoxdur. Səsverməyə səlahiyyətli

olanların 35, 38, yaxud 40 faizi seçkilərdə iştirak edib. Onların da misal üçün, 21 faizi ona səs vermişlər. Əlbəttə, belə də deyil. Bilirsiniz ki, o, Napoleon kimi Ağ evə getdi; onu hakimin hökmü ilə və zorla Ağ evə itələdilər. Bu qədər səsin onun legitimliyi üçün kifayət etdiyini fərz etsək də, buna əsasən, Amerikanın indiki hökuməti legitim deyil. Bizim Amerika hökumətinin qeyri-legitim olmasına dair çoxlu dəlillərimiz var, amma indi onların öz məntiqi ilə söhbət edirik. Bu məntiq yalnız o hökumətə məxsus deyil. Qərbin demokratiya dünyasının sinəsini qabağa vermiş bu demokratiyalarının çoxunun müxtəlif seçkilərində sizin İran İslam Respublikasında müşahidə etdiyiniz 60-65, 70 faizlik rəqəm yoxdur. Onların rəqəmi bundan çox azdır. Düzdür, bəzən onların rəqəmi 60 faiz və ondan bir qədər artıq olur, lakin çox zaman 40-dan bir qədər artıq, 50, 38 və sair belə rəqəmlərdir.

Qəzvinli müəllim və tələbələrlə görüşdəki çıxış: 2003.

### Kapitalist quruluşun iqtisadi məqsədlərini təmin etmək üçün İraqda müharibə törətmək

İstismarçı sistemdə beynəlxalq istismar mərkəzləri bütün dünyaya yem gözü ilə baxır; hər şey - dünyanın maliyyə qaynaqları, dünyanın sərvət mənbələri, dünya bazarları və işçi qüvvələr onların ixtiyarında olmalıdır. İstismarçı sistemin bünövrəsi belə qurulmuşdur. İstismarçı sistem hökumət və güclər şəbəkəsindən ibarətdir, amma bu hökumətlərin arxasında nəhəng kompaniyalar, iqtisadi və maliyyə mərkəzləri durur. Bu gün son siyasətləri təyin edənlər onlardır. Məsələn Amerikanın indiki hakim komandasının tabe olduğu o kompaniyalar Orta Şərqdə əl-qol açmaq, yeni sərvətlər qazanmaq, yaxud güman ki, öz iflaslarının qarşısını almaq, yaxud Orta Şərq regionunun

neft mənbələrini ələ keçirmək, yaxud sionist kapitalistlərin və sionizm dövlətinin maraqlarını müdafiə etmək və yaxud bunların hamısı üçün Orta Şərqdə güclü nüfuza ehtiyaclı olsalar, nə edərlər? İraq müharibəsini planlaşdırırlar, bir müharibə yaradırlar; bütün bu zərərləri törədən hərbi bir müdaxilə. Silsiləvi şəkildə izlədikdə dünyanın iqtidarlı siyasətlərinin pərdəsi arxasında çalışıb fəaliyyət göstərən güclərin iqtisadi və siyasi məqsədlərlə qarışmış qərəz və tamahları ortaya çıxır.

Tehranın cümə namazı xütbələrindən: 2004.

## Siyasi hiylələr - Qərbin bütün gücü

İndi Amerika hökuməti, Qərb kapitalizmi və fəsad törədən sionist fəallar İslam oyanışının canlı həqiqətini hiss edirlər; silahın və hərbi gücün bu həqiqət qarşısında acizliyini etiraf edib, özlərinin bütün güclərini siyasi hiylə və üsullarla işlədirlər.

Əzəmətli Həcc konfransı münasibəti ilə müraciətdən: 2006.

## Dünyanın iqtisadi strukturu - hegemonluğun əlində bir sap

Görürsünüz ki, müstəmləkə altında olan ölkələrin bəzisində zahiri inkişaf var, amma iqtisadi struktur dağılmışdır. Yəni əgər bir kranı bağlasalar, yaxud bir hesabı dondursalar və ya iqtisadi cəhətdən müdaxilə etsələr, hər şey dağılıb məhv olacaq. Siz gördünüz ki, bir kapitalist iki-üç ay ərzində Cənub-Şərqi Asiyanın bir neçə ölkəsini müflis etdi; özü də nisbətən yaxşı inkişafı və iqtisadiyyatı olan iki-üç ölkəni. Həmin ölkələrin birinin prezidenti həmin günlərdə Tehrana gəlmişdi və mənimlə görüşdü. Dedi sizə bu qədər deyim ki, biz bir gecədə

tamamilə yoxsul olduq. Bir ipi dartan kimi kukla bir bina necə uçursa, amerikalı yəhudi bir biznesmen bir ipi çəkdi və hər şeyi dağıtdı. Amerikalılara harada lazım olsa, 50-60 milyard köçürürlər; 50 miylard birinə, 30 milyard o birinə. Amma harada lazım olmasa, köçürmürlər və o ölkəni bədbəxt günə qoyurlar. Əlbəttə, köçürmək də budur ki, o kukla quruluşu yenidən başqa bir formada bərpa edirlər. Hər halda, bu ölkələrin iqtisadiyyatının möhkəmlənməsinə qoymurlar.

Universitet cihadının ekspertləri və Elmi Şura üzvləri ilə görüşdəki çıxışdan: 2004.

**Bütün bəşəriyyətə hakim olmaq istəyirlər!**

Bu muharibə bu gün də davam edir. Dünyanın hegemon qüvvələrinin - yəni Qərb dövlətlərinin, Amerikanın və sionistlərin son həddi yoxdur; bütün dünyaya, dünyanın bütün maliyyə mənbələrinə, bütün bəşəriyyətə hakim olmaq istəyirlər. Bəs xalqların təqsiri nədir? Xalqlar nə üçün buna dözməlidirlər?! Amma təəssüf ki, reallıq belədir. Onların maraqlarını təmin etmək, xalqlarının maraqları əleyhinə bacardıqları qədər işləmək və xalqı çətinliyə salmaq üçün öz tiplərindən olan bəzi şəxsləri xalqlara başçı qoyublar. Müstəmləkə məsələsinin yarandığı təxminən son 200 ildə bu, dünyada müxtəlif fomalarda baş vermişdir. Bu dövrdə xalqların problemi yalnız bu deyil ki, bir diktatorla üzləşmişlər, müstəbid bir insanla üz-üzə qalmışlar. Problemləri budur ki, bu diktatorun transmilli güclərdən ibarət olan dayağı vardır. Bu ölkənin və bu xalqın maraqlarını tapdayıb məhv edən onlardır. Müasir müstəmləkə dövrünün problemi budur. Bu baxışla baxdıqda bütün bu məsələlər düzgün təhlil olunur. Bugünkü hadisələr də belədir.

Fars vilayətinin əhalisi ilə görüşdəki çıxışdan: 2011.

## Yalnız İraqın yox, bütün regionun nefti üçün gəlmişlər!

Bu gün hegemonluğun tərənnümü olan Amerika hökuməti çoxlu problemlərə düçar olmuşdur. Amerika hökumətinin uğursuzluqları kiçik məsələ deyil. Siz son 7-8 ilə baxın: Fələstin məsələsində məğlubiyyətə uğradılar: Fələstin fikrini xalqların zehnindən silməkdə məğlub oldular; İraq xalqının taleyinə hakim olmaqda məğlubiyyətə uğradılar; İraqda yaratmaq istədikləri biryönümlü totalitar hökumət nakam qaldı. Amerika prezidentliyinə namizəd olan bir şəxs iki-üç gün bundan qabaq elan etdi ki, Amerika Orta Şərqin neftinə görə İraqa hücum etmişdir. Bu namizədin sözü Amerikanın mətbuatında və media orqanlarında bir qalmaqal yaratmışdır. Bu, bizim ilk gündən dediyimiz sözdür.

Siz İraq xalqını əsir etmək istəyirsiniz. Səddam işğalçı Amerika qüvvələrinə nisbətən daha zəif bir canavar idi. Gəldilər; dedik ki, neft üçün gəlmişlər; yalnız İraqın yox, bütün regionun nefti üçün. Onlar siyasətlə yox, şiddət və zorakılıqla Fars körfəzində bir baza əldə etmək istəyirlər. Amerikalılar bu niyyətlə gəldilər. İndi Respublikaçılar Partiyasından prezidentliyə namizəd olan bu cənab bunu açıq şəkildə etiraf edir...

Yəni Amerika xalqı Amerika hökumətinin onları düçar etdiyi bu hərəkətə - İraq muharibəsinə və İraqın işğalına o qədər nifrət bəsləyirlər, buna görə o qədər narahat olmuşlar ki, prezidentliyə namizəd olan şəxs xalqın səsini qazanmaq üçün bu nöqtə üzərinə barmaq qoyur.

Kazirun rayonun əhalisi ilə görüşdəki çıxışdan: 2008.

## Kapitalizm quruluşunda fəhlənin şəxsiyyətinə təhqir

Bu gün kapitalist dünyada maddi baxımından bəzi fəhlələrin vəziyyəti yaxşıdır. Sözsüz ki, bu, ümumi deyil, bəzən vəziyyətləri yaxşı olur. Lakin onda da sahibkarın, iş və istehsal siyasətini təyin edənlərin gözündə bir alət sayılır; bir bolt və qayka kimidir; onlara maddi dəyər və pul gətirənə qədər dəyrəlidir. Fəhləyə qarşı bu baxışla onu Allah yolunun mücahidi bilən, gördüyü işə bütün maddi mükafatların fövqündə duran ilahi bir savab, ilahi bir dəyər və mükafat nəzərdə tutan baxış arasında çox fərq vardır.

Sosialist təfəkküründə fəhlə və sahibkar bir-birinin qarşısında dayanan, bir-birinin qanına susayan iki düşmən idilər; bu onların təhlili idi. Göstərdikləri həll yolu da səhv və zərərli yol idi: hökumətin bütün istehsal mərkəzlərinə və istehsal alətlərinə malik olması. Bu üsul bir neçə onillik ötəndən sonra bəlli rüsvayçılıqla nəticələndi. O, bir baxış idi; fəhlə və sahibkar münasibətinə düşmən baxış. Başqa bir baxış da Qərb məntiqinin baxışıdır. Bu məntiqə görə sahibkar fəhlənin şahıdır, ixtiyar sahibidir; fəhlə onun əlində və ixtiyarında olan alətdir. Bu da insan şəxsiyyətinə qarşı təhqirdir; səhv ardınca səhv. Hər iki baxış səhvdir.

Ölkənin nümunə fəhlələri ilə görüşdəki çıxışdan: 2010.

## Kapitalist ölkələrin məntiqində fəhlə bir alətdir!

Kapitalist ölkələrin məntiqində fəhlə bir alətdir; sahibkara xidmət göstərən bir vasitədir. Fəhləni müdafiə iddiası edən, sıradan çıxmış və məhv olmuş bəzi məktəblərə görə sahibkar fəhlə arasında müharibə vardır. O quruluşlar bu muharibədən sui-istifadə etmək və adlarını proletarzimin müdafiəçiləri qoymaq istəyirdilər.

Keçmiş Sovetin dırnaqarası sosialist quruluşunda fəhləni və fəhlə təbəqəsini müdafiə adı altında kapitalizmdə olan eyni vəziyyət, eyni israfçılıqlar və müxtəlif maliyyə fəsadları mövcud idi. Məntiqləri paradoksal və ziddiyyətli idi.

İslam, İslam quruluşu və İslam Respulikası isə bu iki yolun heç birini qəbul etmir; düşünür ki, bu iki amil - yəni sahibkarlıq amili bir qoldur, işçi qüvvə də başqa bir qol. Bunların hər ikisi olmalı və bir-biri ilə həmkarlıq etməlidirlər. Hökumətin rolu da haqsızlığın qarşısını almaq məqsədilə bu həmkarlıq üçün ədalətli və orta bir xətt yaratmaqdır; nə onlar bunlara zülm etsinlər, nə bunlar onların işini yarımçıq görsünlər; heç biri digərinin hüququnu tapdamasın. Əgər belə olsa, o zaman cəmiyyət sağlam şəkildə inkişaf edəcək; nə o yeyinti və israfçılıqlar ənənə olacaq, nə də bir təbəqənin məhrumluğu. Bu, İslam Respublikası quruluşunun məntiqidir.

Fəhlə və sahibkarlarla görüşdəki çıxışdan: 2008.

## İstismar altında olan ölkələrdə mədəniyyəti, iqtisadiyyatı və elmi məhv etmək

Elm və tədqiqat barədə deməliyəm ki, istismarçı qüvvələrin beynəlxalq hegemon sistemi qorumaq üçün üzərində təkid göstərdikləri üç əsas məsələ var: mədəni istismar, iqtisadi istismar və elmi istismar. Bunun üçün istismara məruz qalan tərəfi bu üç sahədə müstəqilliyə, özünəinama və inkişafa sarı irəliləməyə qoymurlar; nə mədəni məsələlərdə, misal üçün iman, etiqad, xüsusi mənada olan mədəniyyət, dəyər və məqsədlərdə, nə iqtisadi sahədə və nə elmi sahədə.

Universitet cihadının ekspertləri və Elmi Şura üzvləri ilə görüşdəki çıxışdan: 2004.

## Qərbin elm klubunun inhisarda olması

Qərblilər heç zaman istəməyiblər və istəmirlər ki, qərbli olmayan bir toplum Qərbin elm klubuna daxil olsun. Bu gün inkişaf etmiş bu Asiya ölkələrinin heç birinə - Yaponiyaya, Çinə və müəyyən həddə Hindistana Qərb kömək etməyib. Çin Şərq və Qərbin, kommunizm və kapitalizmin kəskin çəkişmələrində o zamanın sovetləri tərəfindən səxavətli şəkildə himayə olundu. Hətta nüvə enerjisini də onlara ruslar verdilər, çünki heç bir şeyləri yox idi. Sovetlər Amerika və Avropa qarşısında böyük bir Asiya cəbhəsi yaratmaq üçün və Çin də kommunist olduğuna görə onu təchiz etdilər. Hindistan da sonrakı dərəcədə elə idi, Şərq və Qərb cəbhələrində sola meyl göstərirdi. Sovetlər, yəni solçular ona kömək etdilər. Amerikalılar qarşılığında Pakistana kömək etdilər. Əlbəttə, Pakistan da nüvə enerjisini özü yaratmayıb, Çindən alıb. Lakin Amerika göz yumdu və regional siyasi tarazlıqlara görə üstünü vurmadı. Yaponiya öz elmi inkişafını Amerika və Qərbinköməyi ilə əldə etmədi. Yaponlar elmə yol tapa bildilər; bəlkə də oğurluq sözü yaxşı təbir deyil, amma onlar qarşı tərəfin razılığı olmadan elmlərini götürdülər. Lakin zəhmətkeş xalq olduqlarından özlərini inkişaf etdirdilər, Qərb isə onlara kömək etmədi.

Məşhədin Firdovsi universitetinin tələbələri ilə görüşdəki çıxışdan: 2007.

## Qərb müstəmləkəsi - dünyada elmi yarışmanın dayandırılmasının nəticəsi

Mühüm bir məqam budur ki, qərblilər önə keçən kimi bu elmi üstünlükdən siyasi və iqtisadi istismarçılıq üçün istifadə etdilər və müstəmləkəçilik yarandı;

müstəmləkəçilik əvvəllər yox idi. Müstəmləkənin mənası budur ki, bir ölkə minlərlə kilometr uzaqdan sərvət mənbəyi olan bir ölkəyə, məsələn Hindistan yarımadasına təcavüz edib xəncər və mütərəqqi silah gücü ilə oranı ələ keçirsin. Bəli, bilirsiniz ki, İngiltərə suyun əhatəsindədir. İngilislər dənizçilik və gəmiçilik işində mahir olduqlarından bu dənizçiliyi inkişaf etdirdilər, təhlükələrə və risklərə atıldılar, gəlib Hindistanı tapdılar, onu ələ keçirdilər və burada özlərinin elmi üstünlüklərindən siyasi yolda istifadə etdilər. O zamana qədər elmi üstünlüyü olan müxtəlif ölkələrin heç biri bu işi görməmişdi. Şərq bölgəsinə və Hindistan yarımadasına gedib ilk dəfə müstəmləkəçiliyi başladan ingilislər, belçikalılar, hollandiyalılar, həmçinin sonradan gedib Afrikanı tutan bir qrup Avropa ölkəsi, məsələn Portuqaliya elmi inkişaf və bacarıqlarından siyasi yolda istifadə etdilər; yəni müstəmləkəçiliyi yaratdılar. Müstəmləkəçilik yarananda müstəmləkə altında olan xalqın taleyi müstəmləkəyə çevirən xalqın əlinə keçirdi. Onları cəhalətdə saxlamaq üçün bundan istifadə etdilər və elmi yarışmanı bacardıqları qədər dayandırdılar.

Universitetlərin gənc elmi nümunələri ilə görüşdəki çıxışdan: 2008.

## Qərbin İslamın humanitar elmlərindən qorxusu

Biz tədqiqat işləri sahəsində və öz elmi məqalələrimizin ISI jurnallarında dərc etdirməkdə bəzən problemlərə düçar oluruq. Düzdür, qeyd olunduğu kimi, bizim çap olunmuş məqalələrimizin həcmi yaxşıdır, amma mənim xəbərim var ki, xüsusən humanitar elmlər sahəsində ISI jurnallarının bəziləri ümumiyyətlə bizim tədqiqatçılarımızın məqalələrini çap etmirlər. Nə üçün?

Ona görə ki, onların əsasları ilə uyğun deyil. Bəli, ola bilsin fəlsəfədə, psixologiyada, pedaqogikada və digər mövzularda bizim sözlərimiz olsun. Bizim tədqiqatçımız araşdırma aparıb və bir nəticə alıb. Bizim istədiyimiz kimi bir sərhədi keçib, amma bu sərhəd bu elmin vətəni olan Qərblə və onun dəyərləri ilə uyğun deyil. Buna görə məqaləni çap etmirlər. Bu da liberal-demokratiya dünyasının sözün həqiqi mənasında açıq olduğunu və hamının istədiyi sözünü danışa bilməsini güman edən bəzi şəxslərin sadəlövhlüyünün cavabıdır. Xeyr, onlar hətta elmi araşdırmaları da müəyyən meyarlarla görürlər. Bu, xəbərdaredici və ibrətli məsələlərdəndir. Əgər sizin məlumatınız yoxdursa, araşdırın; sözümün doğru olduğunu görəcəksiniz.

Təhsil Naziri və universitet rektorları ilə görüşdəki çıxışdan: 2005.

## Fəsadlı kapitalizm şəbəkəsinin ədalət tərəfdarları əleyhinə mənfi təbliğatı

Dünyanın müxtəlif yerlərindən siyasi təzyiqlər göstərilir və mənfi təbliğatlar hər tərəfdən hücum edir. Səbəbi də bəllidir. Çünki quruluş dünya quldurları ilə vuruşan bir quruluşdur. Bir quruluş ədalət şüarı verir və zülmlə vuruşursa, bunun mənası zalımlarla vuruşmaqdır. Zalımlar kimlərdir? Dünya quldurları həmişə zalımdırlar; zalımlar da elə quldurlardır. Zəif insanların zalım olması az hallarda baş verir. Zalımlar güclülərdir. Deməli, İslam quruluşu təbii olaraq bunlarla vuruşur. Çox fəsadlı olan beynəlxalq kapitalizmin bu nəhəng, mürəkkəb və çoxşaxəli şəbəkəsi - beynəlxalq hegemonluq da əslində odur və dünya siyasətlərini o idarə edir - daim təbliğat aparır, danışır, ajiotaj və ictimai rəy yaradır.

Quruluşun məsul şəxsləri ilə görüşdəki çıxışdan: 2001.

### Xalqlara həqarət və gücsüzlük hissinin təlqini

Beynəlxalq hegemon sistem həmişə öz təbliğat vasitələri ilə elm və texnologiya karvanından geri qalan xalqlarda həqarət, gücsüzlük və ehtiyac hissini gücləndirməyə, onları özünə möhtac saxlamağa çalışmışdır.

Universitet mənsublarının və tələbələrin həzrət İmam Xomeyninin xatirəsinə həsr olunan xüsusi toplantısına müraciətdən: 1999.

### Xalqların insaniyyəti bədheybət hegemonluq divinin təhdidi altında

Bu gün istismarçılığın bədheybət və mənfur divi xalqları təhdid edir. Bu təhdid yalnız İran xalqına və İslam Respublikası quruluşuna yönəlməmişdir, bütün dünyaya və insaniyyətin özünə yönəlmişdir. Siz görün bu gün hegemonluğun mərkəzi, yəni Amerika Birləşmiş Ştatları quruluşu insani dəyərlərlə və insanlarla necə rəftar edir; insanların hörmət və heysiyyətini təhqir etmək, insanların canını almaq, insanların milli kimliyini məhv etmək onlar üçün adi iş olmuşdur; onun pisliyini dərk də etmirlər. Xalqlar bu şər və xəbislik təcəssümü qarşısında nə etsinlər? Xalqlar təslim olub öz talelərini, kimliklərini və gələcəklərini əxlaq, din və şərəfdən ibarət olan heç bir maneənin saxlaya bilmədiyi təcavüzkarlara tapşırsın?!

Ordunun hərbi universitetlərinin müştərək tədbirindəki çıxışdan: 2005.

**Qərb quruluşu: müdafiəçi vəkil, yoxsa cinayətkar?!**

Qərb mədəniyyətinin qadın, cinsi özbaşınalıq və o bölgələrin qadınlarını pozğunluğa çəkməsi ailənin təməlinin zəifləməsinə və ailə daxilində kişi və qadının bir-birinə xəyanətinin çox da əhəmiyyətli sayılmamasına səbəb olmuşdur. Bu günah deyil?! Bu, qadın cinsinə xəyanət deyil?! Bu mədəniyyətlə bütün dünyanı borclu da bilirlər, halbuki özləri borclu olmalıdırlar. Qərb mədəniyyəti qadın barədə müdafiəçi mövqeyində dayanmalı, özünü müdafiə etməlidir, izah etməlidir. Lakin kapitalizmin və Qərbin hegemon və zalım mediasının hökmranlığı məsələni əksinə çevirir; onlar iddiaçı olurlar; onlar qadın hüquqlarının müdafiəçisi olurlar. Halbuki belə bir şey yoxdur.

Qadınlarla görüşdəki çıxışdan: 2000.

**Mədəni hücum - müsəlmanlara yenidən hakim olmanın yolu**

İslam cəmiyyətlərinin, xüsusən də gənclərin sağlamlığını təhdid edən başqa bir bəla Qərbin mədəni hücumudur. Pozğunluğu yayan səsli və görüntülü dalğalar İslamın beynəlxalq düşmənlərinin yenidən istismarına hərbi gəmi və təyyarələrdən daha əlverişli şərait yaradır, yalançı dəyərləri təbliğ etməklə müsəlmanların xar və əsir olmasına bais olan qərbpərəstliyi təbliğ edir.

İslam Əməkdaşlıq Təşkilatının Parlamentlər Birliyinin konfransına müraciətdən: 1999.

**Amerikanın maraqları məsələsi qarşıya çıxanda**

Bu gün hegemon sistemin timsalı Amerikadır. Dünyada hegemon sistem əsasında hansı xoşagəlməz iş baş verirsə, onun günahının bir hissəsi mütləq Amerikanın boynuna

düşür. Hegemon sistemin mənası budur ki, əgər Amerika rejimi dünyanın hər hansı bir nöqtəsində özünün marağı olduğunu fərz etsə, oraya hərbi güc yeridib maraqlarına qarşı çıxan hər bir kəsi əzməyə haqqı çatır. Söhbət bu maraqların qanuni, yaxud qanunsuz olmasından getmir. Hegemon sistem üçün bunun fərqi yoxdur; bu maraqlar bütün beynəlxalq müqavilələrin ziddinə də ola bilər. Hegemon sistem bəzən öz istismarçılığını gizli şəkildə yerinə yetirir, bəzən də açıq-aşkar şəkildə elan edir ki, filan təşkilat, dövlət, cəmiyyət, yaxud hərəkat bizim maraqlarımızla ziddir. Bu bəhanə Amerika üçün o təşkilatı, şəxsi, dövləti və xalqı əzmək hüququ yaradır. Bu, meşə qanunu və insan fitrətinin ziddinə olan qeyri-insani bir quruluşdur.

İstismarçının baxışında yalnız istismarı qəbul edənlər məqbul sayılırlar. Əgər bir dövlət öz neftini, mənbələrini, təhlükəsizliyini, iqtisadiyyatını, xarici münasibətlərini və ölkəsinin müxtəlif siyasətlərini istismarçının ixtiyarında qoyub (müxtəlif məsələlərdə) onun fikrini öyrənsə və ona itaət göstərsə, istismarçının xoşuna gələcək və o ölkəni qəbul edəcək. Onun üçün fərqi yoxdur ki, bu dövlət zalım dövlət olsun, yoxsa ədalətli; insan hüquqlarına riayət etsin, yoxsa etməsin; o ölkədə demokratiya olsun, yoxsa olmasın; parlamentin adı o xalqın qulağına çatmış olsun, yaxud olmasın. Orta Şərq regionuna baxın, görün Amerika istismarçılarının qəbul və etiraf etdiyi hökumətlər necə hökumətlərdir. Onlar fikir, siyasət, insan hüquqları və demokratiya baxımından inkişaf etmişlərmi? Ümumiyyətlə demokratiyanın mənasını bilirlərmi? Onların xalqı seçkilərin mənasını bilirmi? Həmin ölkələrdə nəfəs almaq şəraiti mövcuddurmu? Bu məsələlərin istismarçı ölkənin, yəni Amerikanın məsul

şəxsləri üçün əhəmiyyəti yoxdur. Əhəmiyyəti olan budur ki, bu ölkələr o istismarçıya təslim olublar; bu kifayətdir. Lakin əgər hər hansı bir milliyyətə və xüsusiyyətə malik bir ölkə, cəmiyyət, yaxud təşkilat istismarçıya təslim olmasa, dünyanın harasında olursa-olsun, vurulmağa və hücuma məruz qalmağa layiqdir. Vuruşmalara baxın, dostluqları və düşmənlikləri görün, İslam Respublikası quruluşu ilə vuruşmanı müşahidə edin. Hegemon sistem ölkələrin və xalqların təslim olmadığı təqdirdə onların əleyhinə hər bir cinayəti törətməyi maneəsiz bilir.

Şagird və tələbələrlə görüşdəki çıxışdan: 1995.

# İkinci fəsil

## Kapitalizm quruluşu üçün həyəcan siqnalı
## Böyük güclərin süqut əsri

Biz bu gün dünyada mənəviyyatın inkişafının və maddiyyatın tənəzzülünün əlamətlərini görürük. Şərqi Avropanı gördünüz, dünyanın bir çox yerlərini müşahidə etdiniz və çoxlu yerləri də müşahidə edəcəksiniz.

Bu gün dünyada altı ayın, yeddi ayın, səkkiz ayın, bir ilin içində baş verən hadisələr bəzən tarixdə misilsiz olur. Bu güclü və qəribə hadisələrin hamısı sizin iman bəslədiyiniz mənəviyyatın qüdrətinin, xalqların qüdrətinin, xalqlara arxalanan və xalqların sevdiyi quruluşların hakimiyyətinin istiqamətindədir, hər bir növdən - istər mürtəcelik, diktatura və şahlıq növündən, istərsə də modern Amerika növündən olan hegemonluğun və istismarın əks istiqamətindədir. Məgər bu gün süqut edən yalnız dünyanın bir yerində olan bir hökumət və dövlət yox, əslində bir böyük güc deyil?! Məsələ böyük güclərin süqutu məsələsidir. Əvvəllər Portuqaliya, İspaniya, İngiltərə və bu qəbildən olan imperatorluqları görmüşdük; bir gün imperiya idilər, bir gün də çox adi bir dövlətə çevrildilər. Heç kəs inanmazdı ki, iyirminci əsrin sonlarının böyük gücləri də bir gün adi bir dövlətə çevrilə bilərlər, amma bu gün bu həqiqəti görürük.

Ordunun Hərbi Hava Qüvvələrinin komandanı və şəxsi heyəti ilə görüşdəki çıxışdan: 1990.

## İslamın sayəsində Qərb və Şərq quruluşlarının dağılması

Bu gün dünyanın iki siyasi və iqtisadi blokundan biri olan Şərq bloku təxminən dağılmışdır və bu gün daha Şərq bloku adlı bir şey dünyada söhbət mövzusu deyil. Heç kim buna inanmazdı. Mən deyirəm ki, İslamın nüfuz dairəsi bundan çox-çox irəlilərə gedəcək və bəşəriyyət çox uzaq olmayan gələcəkdə Qərb hakimiyyətinin, istismarçı mədəniyyətin və bəşər həyatına hakim olan antidəyərlərin dağılmasına şahid olacaq, bu gün Qərb bloku adı ilə dünyaya zülm və cəfa edən amil məhv olacaq. Və bu, İslamın sayəsində baş verəcək.

"İslam düşüncəsi" konfrasında xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 1990.

## Amerika öz məhv prosesini başlatmışdır!

Amerikanın nadan prezidenti bir-iki həftə öncə öz çıxışında dedi ki, əgər biz İraq neftindən istifadə edə bilsək, filan-filan ölkələrin neftinə ehtiyacımız olmayacaq; yəni neft üçün gəldiklərini etiraf etdi; insan hüquqlarını və demokratiyanı müdafiə üçün gəlmədiklərini etiraf etdi. Korporasiyaların maraqları onları bu ölkəyə çəkmişdir. Bu məntiq dünyada iflasa uğramışdır; kimlərsə qorxub danışmasalar, yaxud danışsalar və sionist media onların sözünü işıqlandırmasa da. Belə bir məğlub məntiq əsasında dünyada belə qoçuluq edən, sola-sağa vuran bir quruluş iflasa və məhvə məhkumdur. Amerika özünün hegemon rejiminin məhvi prosesini başlatmış, həm də bu sahədə çox irəliləmişdir. Dünya xalqı bunu müşahidə edəcək.

Müəllim və fəhlələrlə görüşdəki çıxışdan: 2004.

## Kapitalizm rejiminin fəsadının aşkara çıxması

Kapitalizm rejiminin fəsadı xalq üçün hissolunan və aşkar olmuşdur. Bu hərəkəti yatıra bilərlər, lakin onun köklərini məhv edə bilməzlər. Bu hərəkət nəhayət bir gün elə çiçəklənəcək ki, Amerikanın və Qərbin kapitalist quruluşunu bütövlüklə yerə çırpacaq.

Kermanşah əhalisinin böyük toplantısındakı çıxışdan: 2011.

## Siyasi haqlılığın olmaması səbəbindən quruluşların süqutu

Bir quruluş və bir siyasi rejim üçün həqiqi zəiflik və qüdrətin tənəzzülü o zaman başlayır ki, bu rejim və bu quruluş öz işi üçün özünün siyasi və qaneedici dəlilini və siyasi haqlılığını əldən verir. Bir rejim özünün siyasi haqlılığını əldən verdikdə, öz varlığı və işləri üçün dəlil əlindən xaric olduqda, o zaman öz mənəvi gücünü əldən vermiş və onun süqutu başlanmışdır; zahirdə bir şey anlamasa və onun özü başa düşməsə də. Bunlar qüdrət və ehtirasda o qədər məst olublar ki, dünyada siyasi haqlılıqlarını itirmələrinin və dəlillərinin zəfiliyinin onlara nə etməkdə olduğunu anlamırlar.

Müəllim və fəhlələrlə görüşdəki çıxışdan: 2004.

## Daxili təhdid

Bu gün hətta Amerika kimi bir güc də - sözsüz ki, o, iqtisadi baxımdan, milli sərvət, elmi və hərbi inkişaf baxımından yüksək səviyyədədir - böyük təhlükə qarşısındadır və daxildən təhdid olunur. Amerika rəsmilərinin sözlərində bunu görmək olmaz. Biz də bayırdan baxdığımıza görə bunu düzgün görə bilmərik,

amma Amerikanın siyasi filosof və mütəfəkkirləri bu xəbərdarlığı verirlər və çoxlu kitablarda yazmışlar.

Ərdəbil vilayətinin gəncləri ilə görüşdəki çıxışdan: 2000.

## Kapitalizmin gözqamaşdıran gözəlliyi altında xroniki xəstəliklər

İslam dünyası öz tarixinin həssas mərhələsindən keçid halındadır. Bu vəzifələrlə tanışlıq və onların qarşısında öhdəlik hissi İslam tarixi kitabının bədbəxtlik və zəiflik vərəqini çevirib, müsəlmanların izzət və əzəməti, İslam dünyasının maddi və mənəvi ucalığı səhifəsini yenidən aça bilər. İslam ölkələrinin zəifliyini və geriliyini şiddətləndirmiş Qərb dünyası bu gün böyük və həllolunmaz problemlərə düçar olmuşdur. Materializmin və kapitalizmin fəsadı həmin maddi sivilizasiyanın təməllərinə göstərdiyi təsiri tədricən aşkara çıxarır, sənaye və kapitalın qözqamaşdıran gözəlliyi altında gizlənmiş xroniki xəstəlikləri tədricən göstərir və böhranın yaxınlaşmasını xəbər verir.

Allah evinin ziyarətçilərinə müraciətdən: 2001.

## Mütəfəkkirlərin həyəcan siqnalı, qərblilərin bataqlığı

Siz bu gün təməlləri azğın kapital və elm, yəni kapitalizm üzərində qurulan siyasi kürsülərdə oturmuş şəxslərin danışıq tonuna baxın. Qərb dövlətləri indi belədirlər. İndi Qərb qüvvələrinin zirvəsində Amerika dayanır. Qüdrət kürsüsünün ayaqları kapitalistlərin kartel və trestləri üzərində durur, aləti də elmdir. Elmin vasitəsi ilə silahdan istifadə edirlər; elmin vasitəsi ilə casusluqdan və informasiya oğurluğundan istifadə edirlər; elmin

vasitəsi ilə dünyanın müxtəlif yerlərində vurub-aşırtmaqdan istifadə edirlər. Görün belə azğın elmə malik olan belə ölkələrin başçılarının danışıq tonu necədir. Amerika prezidentinin bir neçə gün bundan öncəki çıxışının nə qədər kobud, təkəbbürlü və nə qədər nifrətamiz olduğunu gördünüz. Həmin qürur və təkəbbür bunları günbəgün bataqlıqda batırır.

Bu gün siz bunu bilin; mən indi sizə deyirəm ki, siz o günü görəcəksiniz, amma bizlər olmayacağıq. Siz gənclər yanlış təməl üzərində qurulmuş bu sivilizasiyanın bataqlıqda boğulacağı günü görəcəksiniz. O bu bataqlıqda anbaan aşağıya doğru gedir və şübhəsiz, süqut edəcək. Həmin qürur, həmin axmaqcasına olan təkəbbür də bunları gözləyən süqutun amillərindən biridir. Bunlar süqut edirlər. Bu gün bir qədər çığırıb-bağırırlar, amma özləri də bilmədən üzüaşağı hərəkət etməkdədirlər. Əlbəttə, ağıllı adamları bilirlər. Ağıllı insanlar illərdir fəryad çəkir, xəbərdarlıq edir, həyəcan təbli çalırlar. Lakin eşidən kimdir; hamısı məstdirlər, məst.

Gənc elmi nümunələrlə görüşdəki çıxışdan: 2007.

## Uoll-stritdə üçüncü dalğa

Amerikanın maliyyə mərkəzində, iqtisadi paytaxtında - yəni Nyu-Yorkda, özü də dünya kapitalizminin əsas mərkəzi olan Uoll-strit prospektində minlərlə insan mitinq keçirib deyir ki, biz kapitalizmi istəmirik. Bunlar nə mühacirdirlər, nə hamısı qaradərilidirlər, nə də cəmiyyətin aşağı təbəqələrindən; onların arasında universitet müəllimi var, siyasətçi var, tələbə qrupları onlara qoşulmuşdur. Deyirlər ki, biz kapitalizm quruluşunu istəmirik. Bunlar bizim sözlərimizdir. Biz əvvəldən demişik ki, nə şərqli, nə qərbli; yəni nə kapitalizm quruluşu, nə sosializm quruluşu.

Sosializmin cəhənnəmə vasil olduğunu gördük, bu da yavaş-yavaş getməkdədir. Bu hadisədən sonra İslama təmayül artacaq. Bu da başqa bir dalğadır; üçüncü dalğadır.

Kermanşahın şiə və sünni ruhaniləri ilə görüşdəki çıxışdan: 2011.

## İstismardan irəli gələn təcridolunma - Amerika məhvinin amili

Bu gün Amerika özünün günbəgün artan hərbi və maddi qüvvəsinə rəğmən, siyasi məğlubiyyətin sonlarındadır və dünyadan təcrid olunur. Amerikaya qarşı nifrət heç zaman bugünkü kimi olmamışdır; Şərqi və Qərbi də yoxdur, Asiya, Afrika və Avropa da tanımır, hər yerdə belədir. Amerikalıların özləri bunu etiraf edirlər, mənim sözüm deyil. Onların özləri etiraf edirlər ki, güclə dünyaya hakim olmaq olmaz. Brejinski bu yaxınlarda "Dünya rəhbərliyi, yoxsa dünyaya hökmranlıq" adlı bir kitab yazmışdır. O bu kitabda yazmışdır ki, dünyaya güc və qüdrətlə hökmranlıq etmək Amerika üçün dünyada günbəgün təcrid olunmaqla bərabərdir. Doğru da deyir. Günbəgün daha artıq təcrid olunacaq və bu, o hökmranlığı da məhv edəcək. Əlbəttə, məsələnin digər variantı budur ki, biz hökmranlıq niyyətində olmayaq, münasibətlər quraq, yaxşı əxlaq göstərək ki, dünyaya rəhbərlik edə bilək. İndi şirin yuxu görürlər və Amerika mühafizəkarlığı onlara ilham edib ki, onlar dünyanın rəhbəri olmalı, öz dəyərlərini dünyaya hakim etməlidirlər.

Xarici İşlər Naziri və nazirliyin məsul şəxsləri ilə görüşdəki çıxışdan: 2004.

# Üçünü fəsil

## 99 faizlilərin oyanış amilləri

### Bir faizin hakimiyyəti altında olan 99 faiz

Fəsadlı kapitalizm rejimi yalnız Əfqanıstanın, İraqın və digər yerlərin əhalisinə yox, heç öz xalqına da rəhm eləmir. Nyu-Yorkda keçirilən bu bir neçə min nəfərlik mitinq və yürüşlərdə bir plakat qaldırmışdılar; onun üzərinə belə yazılmışdı: "Biz 99 faizik". Yəni Amerika xalqının əksəriyyəti olan 99 faiz bir faizin hakimiyyəti altındadır. İraq və Əfqanıstan müharibəsini həmin bir faiz törədir, lakin həlak olanları və ziyanı 99 faiz verir. Bu, xalqı oyadan və etiraza vadar edən amildir. Əlbəttə, Amerika məmurlarının, CİA-nın və digərlərinin təbliğat və psixoloji müharibə üsulları çox qəddar və zalım üsullardır; bunlara üstün gəlmələri mümkündür. Amma hər halda, həqiqət aydın oldu və bundan sonra daha da aydınlaşacaq. Bütün iddialara rəğmən, kapitalizm rejimi budur; Qərbin liberal-demokratiyası budur.

Kermanşah əhalisinin böyük toplantısındakı çıxışdan: 2011.

# Birinci bölmə

## Kapitalizm quruluşunun sionistlərin xidmətində durması

### Amerikada sionist lobbinin təsirinə qarşı ümumi qəzəb

Bu gün Amerika cəmiyyətində sionist lobbinin güclü təsirinə qarşı böyük qəzəb tədricən artmaqdadır. Sionist qüvvələrin və sionist kapitalistlərin fəaliyyət mərkəzi olan Amerikada xalqda tədricən bu narazılıq yaranmaqdadır. Əlbəttə, Amerikada hakim rejim xalqa qarşı çox sərtdir. Orada sərtliyin xüsusi bir növü icra olunur. Onların başla rını həyatın qayğılarına və məişət problemlərinə elə qarışdırırlar ki, baş qaşımağa vaxtları olmur. Lakin eyni zamanda bu vəziyyət yaranmaqdadır. Bu, dəqiq informasiyadır. Avropa ölkələrində də başqa cürdür; İslam ölkələrində isə bəllidir; Orta Şərq ölkələrində isə bəllidir. Xalqların Amerika Birləşmiş Ştatları rejiminə və dünyanın istismarçı blokuna qarşı nifrəti və bəzən qəzəbi vardır. Bunu yığışdıra bilməzlər; çox çalışırlar, amma bacarmırlar.

Universitet müəllimləri ilə görüşdəki çıxışdan: 2010.

### Xəbis sionizm şəbəkəsinin Qərb hökumətlərinə hakim olması

Bu gün Avropa ölkələrində, məsələn İngiltərədə, Fransada, Almaniyada, İtaliyada mövcud olan bir çox problemlər xəbis sionizm şəbəkəsinin siyasətlərinin bu ölkələrin hökumətlərinə hakim olmasından irəli gəlir. Bunlar dünyada çox olan sionist kapitalistlərə və

korporasiya sahiblərinə göz yumur, onların sözlərini eşidirlər. Amerikada da belədir. Sionistlərə yaltaqlıq etmək Amerika iqtidarları üçün normal bir ənənə olmuşdur. Avropada da az-çox belədir. İstər Amerika, istər Avropa xalqları bu bədbəxtliklərin çoxunun bu şəbəkənin şeytani hökmranlığından irəli gəldiyini bildikdə şübhəsiz, maraqları artacaq və hərəkətləri güclənəcək. Bu gün Amerikanın polislə, ordu ilə xalqı yatırtması mümkündür. Bu, keçmişdə də baş vermişdir. Bir neçə il öncə Çikaqoda bir hərəkət baş verdi və oraya ordu yeritdilər. Zənnimcə Klintonun dövrü idi; Buşdan öncəkilərin hakimiyyəti dövrü. Heç nədən çəkinmirlər, ordu yeridib xalqı əzirlər, vururlar, öldürürlər, ağır həbsxanalara salırlar. Bu hərəkət yatırıla bilər, amma məhv olmayacaq, kül altındakı od kimi qalıb bir gün elə şölələnəcək ki, hegemonluğun və kapitalizmin bu saman binasını yandırıb kül edəcək.

Kerman vilayətinin universitet tələbələri ilə görüşdəki çıxışdan: 2011

### Beynəlxalq hegemonluğun əzəmətli şəbəkəsi

Hegemon qüvvələr yalnız Amerika Birləşmiş Ştatları, yaxud Amerikanın və ya filan Avropa ölkəsinin filan prezidenti və filan hökuməti deyil. Hegemon qüvvələr bunlara şamil olan daha möhtəşəm bir şəbəkədir; sionizm şəbəkəsidir, əsas beynəlxalq biznesmenlər şəbəkəsidir, dünyanın nəhəng valyuta mərkəzləridir. Dünya siyasətini planlaşdıran bunlardır; hökumətləri bunlar gətirirlər, bunlar aparırlar. Bu şəbəkənin daxilində Amerika Birləşmiş Ştatları hökuməti var, Avropa hökumətləri var və öz regionumuzun bu sərvətli neftyeyənlərinin çoxu var.

Tələbələr və elmi nümunələrlə görüşdəki çıxışdan: 2009.

### Yalnız sionistlərin xoşuna gəlməkdən ötrü

Biz İsraildən başqa bir şey gözləmirik, çünki o, terrorçu rejimdir. Lakin məsələ burasındadır ki, bu terrorçu hərəkəti Qərb dünyasında heç kəs qınamadı. Bu, hegemon sistemdir. Onun çirkin siması bu gün dünyanı bürümüşdür; dünyanın hər hansı bir yerində olan bəşərin onun əleyhinə yumruq düyünləyib, fəryad qoparmağa haqqı var. Bu sükut çox acınacaqlıdır. Jurnalistlər, hüquq təşkilatları, dillərindən terror və terrorçuluq sözü düşməyən siyasətçilər asanlıqla sükut edirlər. Amerika prezidenti bütün dünya hökumətlərinin və xalqlarının qarşısında çox həyasızlıqla İslam Respublikasını terrorçuluğu dəstəkləməkdə ittiham edir. Onlar böhtan atmaqda bu qədər təqvasız və arsızdırlar; nə informasiyaları var, nə hadisələrə diqqətləri; yalnız sionistlərin xoşuna gəlməkdə ötrü, doğru, yaxud yalan olmasının fərqinə varmadan bu sözləri deyirlər, sionistlərin açıq terrorçu cinayətlərini isə pisləmir və üzə vurmurlar. Bu çox çirkin bir mövzudur. Əgər dünyada kimsə onu unutsa, özünü qafil bilməlidir.

Şagird və tələbələrlə görüşdəki çıxışdan: 1995.

### Kapitalizm quruluşu sionizmin dalanında

İsraili həmin bir faiz dəstəkləyir. Amerika xalqı İsraili dəstəkləməkdə, pul verib, vergi ödəyib və xərc çəkib bir regionda İsrail adlı xərçəng vəzisini, qondarma İsrail dövlətini saxlamaqda maraqlı deyil. O da (bir faizin) davranış tərzi, gizli saxlaması, sükutu, sonra da göstərilən şiddət; həm orada həm də bəzi Avropa ölkələrində. İngiltərədə elə aqressiv davrandılar ki, geri qalmış ölkələrdə diktatorlar xalqla onun onda biri kimi rəftar etmir. Bununla yanaşı onlar insan hüquqlarının

müdafiəçisi olduqlarını iddia edirlər; söz azadlığının, sərbəst toplaşma azadlığının və bütün dünya xalqlarının müdafiəçisi olduqlarını iddia edirlər. Bizə kapitalizm quruluşunun üsullarını izləməyimizi, öyrənib icra etməyimizi tövsiyə edən şəxslər bu reallıqlara baxsınlar, kapitalizm quruluşunun nə olduğunu görsünlər: tam dalan. Bu gün kapitalizm quruluşu tam bir dalandadır. Bu dalanın illər sonra son nəticəyə çatması mümkündür. Lakin Qərbin böhranı tam şəkildə başlanmışdır.

Kermanşah əhalisinin böyük toplantısındakı çıxışdan: 2011.

## Amerikanın sionizmə dəstəyi insanlara gizli qalmayacaq!

Bu indi Qərb dünyasına hakim olan liberal-demokratiyanın əməlidir. Təbliğat dalğalarının vəziyyətə təsir göstərməsi mümkündür, lakin uzun müddət üçün həqiqətlər insanlara gizli qalmayacaq. Başqa bir nümunəsi işğalçı sionizm rejiminə dəstəkdir. Bu da həmin liberal-demokratiyanın səmərələrindən biridir. İslam ölkələrinin bu işğalçı, zalım və heç bir insani dəyərə inanmayan rejimi rəsmən tanımasına israr edirlər, halbuki nə torpaq onunkudur, nə xalq onunkudur, nə də ən kiçik hüququ var. Digər tərəfdən də o torpağın sahiblərinə bu qədər zülm və təhqiri rəva görürlər. Siz görün iki ildir Fələstin torpaqlarında nə baş verir və onlar xalqa nə edirlər. Amerika işğalçı, fəsadlı və ekspansionist sionizm rejiminin arxasında durur. Dünən Əqsa məscidinə etdikləri hörmətizlik bunun bir nümunəsidir. Bu, liberal-demokratiyanın səmərələrindən biridir.

Əziz Peyğəmbərin (s) Məbəs günü münasibəti ilə quruluşun məsul şəxsləri ilə görüşdəki çıxışdan: 2002.

## Söz azadlığı - sionistlərin əlində oyuncaq

Daha mühüm məsələ Qərb sivilizasiyasının söz azadlığı haqda rüsvayçı mövqeyidir. Əziz İslam Peyğəmbərinə (s) qarşı bu çirkin təhqir hərəkəti hamısından mühümdür. Bu məsələ Qərbin əldə bayraq etdiyi və öyündüyü liberal-demokratiyanı rüsvay edir. Onların dəm vurduqları söz azadlığı Holokast adı ilə tanınan yəhudi qətliamına dair əfsanəyə heç kimin şübhə ilə yanaşmasına icazə vermir. Söz azadlığı bu hadisəyə şamil olmur. Avropa ölkələrində çoxlu insanlar - alimlər, tədqiqatçılar, tarixçilər, jurnalistlər və digər şəxslər qəlblərində bu hadisəyə qarşı olan şübhəni aşkarlamağa cəsarət etmirlər. Bəziləri məsələnin kökündən yalan olduğunu düşünürlər, lakin deməyə cürət etmirlər, çünki deyənlərin cəzalandığını görüblər; həbs edirlər, təqib edirlər, hüququndan məhrum edirlər. Lakin heç bir səbəb olmadan və heç bir hörmətsizlik görmədən bir milyard yarım müsəlmanın müqəddəslərinə təhqir yağdırmaq olar və söz azadlığı buna şamil olur. Söhbət sionistlərin çirkin niyyətlə pul verdiyi o media qurumundan, yaxud karikaturçudan getmir. Söhbət bu işi müdafiə edən, bu rəzil və səxif işin arxasında dayanan və söz azadlığı iddiası ilə onu icazəli sayan Avropa dövlət başçılarından gedir.

Mən təxmin edirəm ki, bu təhqir məsələsi sionistlərin təxribatıdır; məqsəd müsəlman və məsihiləri bir-birinin qarşısında qoymaqdır. Bu, sionistlər üçün böyük əhəmiyyətə malikdir; bütün dünyada əzəmətli İslam toplumunu məsihilərin və məsihiləri müsəlmanların qarşısında qoymaq onlar üçün çox mühüm və lazımlıdır.

11 Sentyabr hadisəsindən sonra Amerika prezidentinin ağzından qaçdı ki, xaç yürüşü başlanmışdır. Səhv

etdiklərini və bunu deməyin lazım olmadığını anladıqdan sonra isə yamaq vurmağa başladılar. O zaman kimsə diqqət yetirmədi ki, bu xaç müharibəsi nədir. Xaç müharibəsi məsihi xalqların müsəlman xalqlarla müharibəsidir. Onlar xalqları bir-birinin canına salmaq üçün planlar cızırlar. Həm dünya müsəlmanları, həm dünya məsihiləri çox sayıq olmalı və bu xəbis siyasətçilərin oyuncağına çevrilməməlidirlər.

Hərbi Hava Qüvvələrinin şəxsi heyəti ilə görüşdəki çıxışdan: 2006.

# İkinci bölmə

**Kapitalizm quruluşu və ədalətin tapdanması**
**Əfsanəvi sərvətlər ölkəsində ədalətdən xəbər yoxdur!**

Əgər bəzi kapitalist ölkələrində sərvət əlamətləri, nəhəng zavodlar, başı göyə çatan tikili və göydələnlər varsa, çoxlu sərvətlər və əfsanəvi pullar varsa, bu o deməkdir ki, bu ölkələrdə ədalət də var?! Bəllidir ki, ədalətdən xəbər yoxdur. Həmin ölkələrdə aclıqdan, dərmansızlıqdan, evsizlikdən çox çətinlik çəkən şəxslər var, həmin ölkələrdə bəz adamlar bu çatışmazlıq və narahatlıqlar səbəbindən ölürlər.

Məsul şəxslər və xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 1993.

**İctimai ədalət - kapitalizmin qurbanı**

Bu gün kapitalist ölkələrində və müxtəlif təbəqələr arasında maraqlar uğrunda mübarizə və müharibə rəsmi və mötəbər bir işdir. Bir vəzifə kimi, bir dəyər kimi və o ölkələri idarə edənlər üzərində bir vəzifə kimi ictimai ədalət adlı bir şey mövcud deyil.

Tehranın böyük müsəllasında gənclərlə görüşdəki çıxışdan: 2000.

**Ədalətsiz sərvət**

Ədalətə diqqət yetirmədən sərvət toplamağın nəticəsi bu gün kapitalist ölkələrində müşahidə etdiyimiz olacaq. Dünyanın ən sərvətli ölkəsi olan Amerikada aclıqdan, soyuqdan və istilikdən ölən insanlar var. Bu sözlər şüar deyil, müşahidə etdiyimiz həqiqətlərdir. Elə insanlar var

ki, 3-4 otaqlı bir ev arzusu ilə illərlə çalışır və bunu əldə edə bilmədiklərinə görə gedib xəyanət edirlər.

Prezident və nazirlərlə görüşdəki çıxışdan: 2005.

## Kapitalizm quruluşunun o biri üzü

Əksər bəşəri məktəblər, o cümlədən Qərbin kapitalizm məktəbi də belədir. Bir tərəfini görmüşlər. İnsanları işə, fəaliyyətə, inkişafa, maddi tərəqqiyə, sərvətə və elmə çəkən tərəfi görmüşlər; düzgün də görmüşlər, lakin digər tərəfini görməmişlər. Göydələnlərin, sərvət və dəbdəbələrin mövcud olduğu bu cəmiyyətdə çoxlu insanların yoxsulluğu və çarəsizliyi də var, acından ölmək də var, zülm də var; hamısından pisi odur ki, bu vəziyyətdən həzz alan bütün şəxslərin evinin içinə girib həyatlarını acıladan geniş fəsad da var. Bəli, bu problem yarandı və işi korladı.

Məhərrəm ayı ərəfəsində ruhani və təbliğatçılarla görüşdəki çıxışdan: 1996.

## Sərvət toplamağın ictimai ədalətdən önə keçməsi

İslam quruluşunda əsas məsələ ümumi rifahdan və ictimai ədalətdən ibarətdir. Bizimlə kapitalist quruluşları arasındakı əsas fərq də budur. Kapitalist quruluşlarda əsas məsələ iqtisadi inkişaf, iqtisadi çiçəklənmə, sərvətin artırılması və istehsalıdır; kim daha çox və daha yaxşı sərvət istehsal etsə, birincidir. Orada mövzu bu deyil ki, ayrıseçkilik, yaxud fərq yaranmasın. Gəlir fərqləri və xalqın böyük hissəsinin rifaha malik olmaması kapitalist quruluşu nigaran etmir. Kapitalist quruluşda sərvəti bölən tədbirlər hətta mənfi tədbirlər sayılır və rədd edilir.

Prezidentin Tənfiz (prezidentliyi təsdiqetmə) mərasimində çıxışdan: 1993.

## Sərvət toplamaq - kapitalizm quruluşunun ilk və son sözü

Bizim quruluşumuz kapitalizm quruluşu deyil. Kapitalizm quruluşu sərvət toplamağa, iqtisadi inkişafa və milli gəlirə baxır. Bu sərvətin necə əldə olunmasının, kimə çatmasının, ondan xalqın neçə faizinin və necə istifadə etməsinin onun üçün əhəmiyyəti yoxdur; milli gəlir artmalı, sərvət artmalı, iqtisadi fəaliyyət dəstəklənməlidir. Bunu dəstəkləyirlər də; qanunlar da bu istiqamətdədir, icraçı qüvvə də. Kapitalist ölkələrin, özü də hamısının yox, bəzilərinin gördüyü maksimum iş budur ki, məzlum və məhrum təbəqələr üçün ayrılan sığorta və kompensasiyalar minimum həddə onlara çatsın. Bu, kapitalizm quruluşudur.

Prezidentin Tənfiz (prezidentliyi təsdiqetmə) mərasimində çıxışdan: 1997.

## İctimai ədalət yaratmaqda kapitalist quruluşların acizliyi

Dünyanın kapitalist quruluşları ölkələrinin abadlığı ilə, ölkələrində elm və sənayenin inkişafı ilə məşğul oldular, lakin ictimai ədalət prinsipinə diqqətəlayiq əhəmiyyəti göstərmədilər...

O ölkələrdə bəşəriyyətin dərdləri bitməmişdir. O cəmiyyətdə mövcud olan sərvət cəmiyyətin bir qrupunu varlandırmışdır, ayrıseçkiliyi aradan qaldıra və ictimai ədaləti bərqərar edə bilməmişdir. Onlar hətta rifah içində yaşayan şəxslər üçün də həqiqi rahatlığı, psixoloji dincliyi və xoş həyatı yarada bilməmişlər; boğazlarından su rahat keçmir; müxtəlif bəlalara düçar olmuşlar. Bəzi bəlalar tez görünür, bəziləri isə bir müddətdən sonra. İndi o bəlaların

görünmə zamanıdır. Qərb dünyası 20-40 il öncəyə qədər belə olmamışdı, amma indi maddi həyatın müsibətləri onların yaxasını tutmuşdur. Səbəbi budur ki, mənəviyyata və ictimai ədalətə diqqət yetirməmişlər.

Məbəs bayramında quruluşun məsul şəxsləri ilə görüşdəki çıxışdan: 1995.

## Liberal-demokratiyada ədalətin ikinci dərəcəli və vasitə olması

Bizim İslamımız ağıl dinidir. Bizim dərkimizdə, bizim məqsəd və vasitə seçimlərimizdə ağlın çox böyük təsiri vardır. Biz bir məqsəd kimi ədalətdən heç zaman imtina etməyəcəyik. Liberal-demokatiyaya əsaslanan kapitalizm dünyası üçün ədalət məsələsinin ikinci dərəcəli və vasitə olduğuna, onlar üçün mənəfəətin, qazancın və pulun əsas sayıldığına görə bizim əsas məsələ olan ədalətdən daşınmağımızı gözləməsinlər. Bizim iqtisadi işlərimiz, daxili və xarici siyasətimiz ədalətə əsaslanır. Bizim İslamımız budur: mənəviyyat, ağıl və ədalət İslamı. Biz İslamın adı ilə qane olub liberal İslam istəmirik ki, Qərb dəyərlərini və Amerika dəyərlərini təbliğ etsin, onların üsullarından bəhrələnsin və müxtəlif sahələrdə onlarla eyniləşsin.

Xarici İşlər Nazirliyinin məsul şəxsləri və nümayəndəliklərin başçıları ilə görüşdəki çıxışdan: 2004.

## Ədalət istəyən xalqı demokratiya şüarı ilə əzmək

Dünyada insanlar ədalətə çox susamışlar. Bu gün demokratiyadan dəm vuran ölkələrdə ədalətsizlik hər yerdən çoxdur. Qara və ağların hüquq bərabərliyini kağız üzərində rəsmən elan etməsindən uzun illər ötən Amerikada hələ də qara və ağlar arasında ayrıseçkilik

salınır. Bəzi Avropa ölkələrində də ayrıseçkilik var. Oralarda irq məsələsi hələ də aktualdır. Hələ də bu ölkələrin, o cümlədən Amerikanın hakimləri daxildə kiminsə, nəyinsə və hansısa bir qrupun onların kapitalizminin monarxiyasına qarşı çıxdığını görsələr, rəhmsizliklə əzirlər.

İmam Rzanın (ə) məqbərəsindəki çıxışdan: 1997.

**Yoxsulu varlı edirlərsə, onlar üçün işləməli olduğuna görədir!**

Kapitalizm siyasəti üçün önəmli deyil ki, bütün insanlar varlı olsunlar və yoxsulluq olmasın. Onlar yoxsulu varlı edirlərsə, onlar üçün işləməli olduğuna görədir. Onlar üçün işləməyən yoxsul barədə deyirlər ki, qoyun ölsün. Əgər kapitalistlər, korporasiya və trestlər avara və işsiz adamı işlədə bilməmişlərsə, deməli, onlara lazımları olmayıb.

Qum Elmi Hövzəsinin alim, müəllim və tələbələri ilə görüşdəki çıxışdan: 1992.

**Həlledilməz insani problemlər səbəbindən kapitalizm quruluşunun süqutu**

Qərbin kapitalizm quruluşu boğaza qədər həlledilməz insani problemlərə qərq olmuşdur. Malik olduqları çoxlu sərvətlərə rəğmən, ictimai ədaləti bərqərar etməyə tamamilə aciz qalmışlar. Amerikada qaradərililərin sonuncu qiyamı göstərdi ki, Amerika quruluşu yalnız Asiya, Afrika və Latın Amerikasının xalqlarına qarşı yox, öz xalqına qarşı da ədalətsiz rəftar edir, oralarda olduğu kimi burada da etirazı zorakılıq və şiddətlə cavablandırır. Düzdür, kommunizm düşərgəsi dağılıb məhv olmuşdur, amma onun rəqibi, yəni kapitalizm düşərgəsi də indiki

vəziyyəti, xüsusən də qüdrət meydanında yeganə qəhrəman olduqdan sonra düçar olduğu qürur və tüğyan səbəbindən qalası deyil. Gec, ya tez dünya onun da süqutunun və dağılmasının şahidi olacaq.

Hörmətli Allah evinin ziyarətçilərinə müraciətdən: 1992.

# Üçüncü bölmə

## Kapitalizm quruluşu və yalançı demokratiya

### Söz azadlığı iddiaçılarının Uoll-strit hərəkatı qarşısında sükutu

Amerika xalqını həyəcanlandırmış bu Uoll-strit hərəkatı mühüm məsələdir. Bunu kiçik göstərməyə çalışdılar, indi də çalışırlar. Bu hərəkatın başlanmasından 2-3 həftə sonraya qədər Amerikanın söz azadlığının lazım olduğunu və onun tərəfdarı olduqlarını iddia edən bütün mühüm qəzetlərindən yalnız biri bu xəbəri yaydı, qalanı onun yanından sükutla ötürdülər. Dünyanın başqa bir tərəfində, onların siyasətlərinə qarşı çıxan bir yerdə kiçik bir hadisə baş verəndə onu yüz dəfə böyüdürlər, amma belə əzəmətli bir hərəkəti sükutla qarşıladılar, gizlətdilər. Sonra gördülər ki, daha çarə yoxdur. Oraya toplaşanların özləri – Nyu-Yorkda Uoll-stritə toplaşmış bu bir neçə min nəfər insan, eləcə də Amerikanın digər şəhər və əyalətlərindəki etirazçılar onları məcbur etdilər. Odur ki, indi bu hadisəni etiraf edirlər. Əlbəttə, onu idarə etmək istəyirlər, amma məsələ mühüm məsələdir.

Kermanşah əhalisinin böyük toplantısındakı çıxışdan: 2011.

### Liberal-demokratiyanın amerikalıların vasitəsilə rüsvay olması

Bir gün Qərb liberalizmi və kapitalist dövlətlərin məntiqi dünyaya yayılmaqdan dəm vurub deyirdi ki, bütün dünya bizi qəbul etməlidir. Amma bu gün Qərbin liberal-demokratiyası Amerikanın işləri ilə özünü rüsvay etmişdir.

Avropa da belədir. Onlar da milli maraqlarının ziddinə olan sözü eşitməyə dözmürlər; müsəlman qızların başörtüyünə dözə bilmirlər. Müsəlman olması, dərisinin rəngli olması səbəbindən vətəndaşlarının təhlükəsizliyini təmin edə bilmirlər. Bu, Qərbin liberal-demokratiyasıdır. Onlar iddia edirdilər ki, bütün dünya bizimdir, beynəlxalq ideologiyanı və əsas düşüncəni dünya xalqlarına biz verməliyik. Bu isə Avropa və Amerikada onların öz rəftarıdır. Bunların daha deməyə sözləri yoxdur.

Qum əhalisi ilə ümumi görüşdəki çıxışdan: 2006.

## Qərb kapitalistlərinin üslubu ilə söz azadlığı

Amerikada media azadlığının mənası böyük kapital sahiblərinin danışmaq azadlığıdır. Əsas mətbu orqanları onlara məxsusdur; ən mühüm çapxanalar və kitab nəşriyyatları kapitalistlərinkidir. İndiki məmurların biri casus yuvasının tutulması barədə ingilis dilində bir kitab yazmışdı. Bu möhtərəm məmurun özü mənə deyirdi ki, Amerikada hansı nəşriyyata müraciət etdiksə, bu kitabı çap etmədi; çünki əsas nəşriyyatlar nəhəng korporasiyalara bağlıdır. Bundan ötrü Kanadaya getməyə məcbur olduq, orada bu kitabı çap etdirmək üçün zəhmətlə bir nəşriyyat tapa bildik. O deyirdi ki, həmin nəşriyyatın sahibi sonradan mənə zəng vurub bu kitabın çapını qəbul edəndən sonra ona təhdidli zənglərin vurulduğunu və ölümlə hədələndiyini bildirirdi. Orada şüar verdikləri kimi həqiqi söz və seçim azadlığı yoxdur.

Kerman vilayəti universitetlərinin müəllim və tələbələrilə görüşdəki çıxışdan: 2005.

## Qərb üslubu ilə seçkilər və demokratiya

Bu gün Qərb ölkələrində və Amerikanın özündə demokratiya və seçkilər adı ilə mövcud olan seçkilərin formasıdır. Orada əslində sərvətin hakimiyyəti mövcuddur. Mən yazıçıların və onların kitablarının adlarını çəkmək istəmirəm, amma amerikalı yazıçıların özləri bələdiyyə, parlament və prezident seçkilərinin hansı yolla keçirildiyini şərh edib yazırlar. Əgər kimsə baxsa, görəcək ki, orada xalqın səsinin təxminən heç bir rolu yoxdur, birinci və axırıncı sözü deyən pul, kapital, hiylə ilə yanaşı olan və avam insanlara gözəl görünən modern təbliğat üsullarıdır. Demokratiyanın adı var, özü isə əsla yoxdur.

Tehranın cümə namazı xütbələrindən: 2000.

## Kapitalistlərin xeyrinə qanun qəbul etmək - ən mənfi cəhət

Bir çox kapitalist ölkələrin parlamentlərində bir deputatın sözdə və əməldə açıq şəkildə müxtəlif şirkətlərin, kartellərin, trestlərin və kompaniyaların maraqlarını müdafiə etməsi normal haldır; bundan çəkinmirlər. Bunlar məclisdə böyük korporasiyaların və nəhəng maliyyə mərkəzlərinin - dünyada ən çox zülmü onlar törədirlər - tərif etdiyi məqsəd və maraqlar üçün qanun qəbul etməyə və onların işlərini düzəltməyə çalışırlar. Bu, onların ən mənfi cəhətidir.

İslam Şurası Məclisinin deputatları ilə görüşdəki çıxışdan: 2004.

## Liberal-demokratiya şüarlarının iflası

Amerikalılar bu hadisədə - İraqa hücumda zərərlər görmüş və iflasa uğramışlar. İndi bəlkə də anlamır və

anlaya bilmirlər, amma şübhəsiz, yaxın gələcəkdə bu uğursuzluqların təsirlərini görəcəklər. Onlar dörd əsas iflasa uğramışlar. Onların birinci iflası Qərb demokratiyası və azadlığı şüarındadır. Onların dünyada geniş şəkildə təbliğ etdikləri bu liberal-demokratiya bu işlə iflasa uğradı. Onlar göstərdilər ki, liberal-demokratiya bir xalqı sözün həqiqi mənasında insan azadlığına inanan səviyyəyə çatdırmağı bacarmır; həmin təfəkkürün maddi maraqları tələb etdikdə insanların azadlığını, canını və seçim hüququnu asanlıqla tapdamağa hazırdır. Əgər amerikalılar doğru deyirlərsə və həqiqətən demokratiya tərəfdarıdırlarsa, bu dəqiqə İraqı tərk edib oradan çıxsınlar. Siz Səddamı hakimiyyətdən kənarlaşdırmaq istəyirdiniz; bu baş verdi. İndi İraqda nə işiniz var?! Əgər doğru deyirlərsə, demokratiyanın və xalqların hüququnu qəbul edirlərsə, hərbçiləri dərhal İraqdan xaric etsinlər və İraqın işlərinə əsla qarışmasınlar. Lakin bəllidir ki, bunu etməzlər.

Tehranın cümə namazı xütbələrindən: 2003.

## Amerika liberal-demokratiyasının ümumdünya rüsvayçılığı

Amerikalılar ideoloji cəhətdən iflasa uğradılar və şüarları yalan çıxdı. Bunu dünya xalqı da dərk etdi və verdikləri şüarda amerikalıların yalançı olduqlarını anladıqları göründü. Dünya xalqlarının müxtəlif yürüşlərdə ya söylədikləri, ya plakatlara yazdıqları 10-15 şüarı mənim üçün topladılar. Onların hamısı göstərir ki, dünya xalqı məsələnin düz həqiqətini dərk etmişdir. Şüarların bəziləri bunlardır: “Bu müharibə neft müharibəsidir, azadlıq və insan hüquqları müharibəsi yox”; "Bu müharibə Amerikanın müflis iqtisadiyyatını

xilas etmək üçündür""; "Bu müharibə Hitler sayağı təcavüz və işğaldır"; "Quldurluğun mərkəzi Amerika, İngiltərə və İsraildir". Dünya xalqları belə şüar verirlər, Tehran xalqı yox. Bunlar İran xalqının öz aydın baxışı ilə çoxdan duyduğu şüarlardır. Bu gün dünya xalqları bunları anlamışlar və dünyanın ictimai rəyi bunları təkrar edir.

Tehranın cümə namazı xütbələrindən: 2003.

**Kapitalist ölkələrdə keçirilən seçkilər kompaniya sahiblərinin hakimiyyət davasıdır!**

Bu gün seçkilərin keçirildiyi və demokratiya bayrağının qaldırılıdığı demokratiya dünyasında xalq hakimiyyəti yoxdur, məsələ formaldır; daha doğrusu çox zaman belədir. Amerikada belədir; dünyanın məşhur demokratik ölkələrində belədir. Gəlib seçkilərə qatılan və seçki mübarizəsi aparan bu şəxslərin arxasında xüsusi cəbhədən olan qruplar dayanır; yəni kapitalistlər, kompaniya sahibləri, milyarderlər və nəhəng maliyyə mafiyaları. İşləri yoluna qoyanlar, azdırıcı təbliğatla və müxtəlif üsullarla xalqın səsini o tərəf-bu tərəfə çəkənlər bunlardır. Əslində dava kompaniya sahibləri arasında gedir, xalqın səsləri arasında yox. Bu, xəyali bir şeydir. Oralarda demokratiya əslində azlığın hakimiyyətidir. Elə qrupların hakimiyyətidir ki, onların təsir və imkanları güclü maliyyə dayağına görədir. Siyasətləri təyin edənlər bunlardır.

Dini Ekspertlər Məclisinin üzvləri ilə görüşdəki çıxışdan: 2010.

**İnsan hüquqlarının pozulmasına dair ən yüksək göstərici Amerika hökumətinə məxsusdur!**

Supergüc özünü təhdid etməyə haqlı bilir. İstismarçı və hegemonçu gücün işi təhdidlə gedir. Dünya xalqları və

çoxlu hökumətlər də təəssüf ki, onların təhdidləri qarşısında güzəştə gedir və onları öz işlərinə daha artıq hakim edirlər. Onların işi təhdiddir. Bu gün onların təhdid bəhanəsi nüvə enerjisidir. Bu olmasa, başqa bir bəhanə tapacaqlar. Özləri terrorçuları ən çox himayə edən dövlətlərdir, amma müsəlman İranı və müsəlmanları terrorçuluqda ittiham edirlər. Amerikanın əsgərləri və təhlükəsizlik qüvvələri İraqın işğal olunmuş yerlərində və Əbu Qüreyb həbsxanasında ən pis cinayətləri törədirlər. Əbu Qüreyb həbsxanasında törədilən cinayət bunların yalnız bir nümunəsidir. Onlar insanları təhqir edirlər, hüquqlarını tapdayırlar; istər burada, istər Əfqanıstanda, istər öz həbsxanalarında, istər Quantanamoda. Lakin digərlərini insan hüquqlarını pozmaqda ittiham edirlər. Mən məlumatın qədərincə insan hüquqlarını Amerika dövləti qədər pozan ikinci bir dövlət tanımıram. Mən statistik rəqəmləri və bu bir neçə ildə gözümüz önündə baş verən hadisələri nəzər alaraq bu nəticəyə gəlirəm ki, bəlkə də dünyada Amerika dövləti qədər insan hüquqlarını pozan bir dövlət yoxdur. Bunlar dünyanın müxtəlif yerlərində törətdikləri cinayətlərdən əlavə Amerikanın özündə də cinayət törədir və insan hüquqlarını pozurlar.

İmam Rzanın (ə) müqəddəs məqbərəsində çıxışdan: 2005.

### Amerika cəmiyyətinin bugünkü səciyyəsi

Amerikalılar bəzi prinsipləri Amerika prinsipləri kimi tanıtdırıb deyirlər ki, bunlar cahanşümuldur. Bu prinsiplər insan azadlığı, düşüncə azadlığı, insan ucalığı, insan hüquqları və bu qəbildən olan digər məsələlərdir. Bunlar Amerika prinsipləridir?! Bu gün Amerika cəmiyyətinin səciyyəsi bunlardır?! Bugünkü Amerika hökumətinin

səciyyəsi sizin bu qeyd etdiklərinizdir?! Amerika torpağının əsl sakinlərini qətliam edən bu hökumət deyildi?! Amerika qırmızıdərilərini məhv etmədi?! Milyonlarla afrikalını evlərinin içindən əsir götürən, onların gənc qız və oğlanlarını qul edən və uzun illər bunlara qarşı ən faciəli şəkildə rəftar edən bu hökumət və onun təsirli qüvvələri deyildi?! Bu gün ən tragik incəsənət əsərlərindən biri Tom dayının daxması romanıdır. Təxminən iki yüz ildir hələ də canlı olan bu əsər Amerikanın quldarlıq həyatını təsvir edir. Amerika reallıqları budur. Amerika hökuməti budur. Amerika quruluşunu dünyaya göstərən səciyyə və xüsusiyyət budur, insan azadlığı və insan bərabərliyi deyil. Hansı bərabərlik?! Siz hələ də ağdərili ilə qaradərilini bərabər bilmirsiniz. Bu günün özündə də bir insanın qırmızıdərili irqi sizin üçün idari seçim mərhələlərinin hər birində bir mənfi cəhət sayılır. İnsanların bərabərliyi?! Düşüncə azadlığı?! Siz bu çıxışı, yaxud cənab prezidentin çıxışını Amerikanın media orqanlarında işqılandırarsınız?! Əgər orada düşüncə və söz azadlığı varsa, cənab Xatəminin bu yarımsaatlıq çıxışını yayımlayın. Hansı düşüncə azadlığı?! Media qurumları müxtəlifdir, amma hamısının göbəyi əksəriyyəti sionistlərin ixtiyarında olan böyük Amerika kapitalistlərinə və kapitalizm sisteminə bağlıdır. Amerikada media azadlığının mənası budur?!

İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdəki çıxışdan: 2002.

### İctimai rəyin kapitalist medianın caynağında olması

Qərbdə azadlıq var, amma zülmlə, pozğunçuluqla birgə olan azadlıq. Qərbdə qəzetlər azaddırlar və hər şey yazırlar, amma onlar kimlərindir? Məgər xalqındır?! Bu

aydın məsələdir, gedib baxsınlar. Siz Avropa və Amerikada kapitalistlərə məxsus olmayan sanballı bir qəzet göstərin. Orada qəzetin azadlığı deyildikdə öz sözünü danışan, istədiyi şəxsi gözdən salan, istədiyi şəxsi böyüdən, ictimai rəyi istədiyi tərəfə yönəldən kapitalistin azadlığı nəzərdə tutulur. Bu daha azadlıq olmadı ki.

Tehranın cümə namazı xütbələrindən: 2000.

## Qərblilərin müxaliflər qarşısında dözüm həddi

Amerikada solçuluq dalğasının olduğu vaxtlarda - indi daha belə şeylər yoxdur - Amerika solçuları, kommunist, yaxud sosialist qruplar və onların tərəfdarları hansı şəraitdə yaşayırdılar?! Siz solçu təmayüllü bəzi yazıçıların, məsələn Hovard Fastın romanlarını oxuyun; onun bir neçə romanı fars dilinə tərcümə olunub və mən görmüşəm. Görün solçular barədə necə dəhşətli mətləblər yazmışlar. Con Sten Bekin məşhur Qəzəb salxımları kitabını, yaxud indi adı yadımda olmayan başqa bir kitabını oxuyun. Görün solçuların vəziyyətinə və dırnaqarası demokratiya mərkəzinin başçılarının onlarla rəftarına dair nə yazmışdır. Oxuyun və bilin ki, dırnaqarası demokratiya mərkəzi - İranda belə pis və çirkin qələmlərin sahiblərinin qibləsi hətta solçulara dözmək istəmirdi. Çünki düşünürdülər ki, marksizm Amerikanın kapitalist quruluşunu sual altına salır. Əgər solçulara dözsəydilər, onların razılığı və qırmızı xətti keçməsi sayılardı.

Əgər Amerikada bir qrup peyda olub “Amerika bölünməlidir” yazsa, desə və şüar versə, yaxud “Amerika 49 ştata bölünməlidir” desə, onunla necə rəftar edərlər?! Əgər bu gün Amerikada kimsə baş qaldırıb “Birləşmiş Ştatlarda 40-50 milyon qaranın yaşadığına görə onların müstəqil ölkəsi olmalıdır; Amerikanın bir hissəsini onlara

verin hökumət qursunlar" – desə, Amerika hökuməti onunla necə rəftar edər?! Davudi firqəsinə etdiklərini edib hamısını bir binada yandırmazlar?! Bunlar bir xalqın qırmızı xətləridir. Siz inqilabı sual altına salır, onu inkar edir və İslam Respublikası quruluşunun inkarına çalışırsınız? Bu qırmızı xətdir və dözüləsi deyil.

Ölkənin mətbu orqanlarının başçıları və məsul işçiləri ilə görüşdəki çıxışdan: 1996.

## Ordu yeritməkdən əsla çəkinmirlər!

Bu gün Amerikanın polislə, ordu ilə xalqı yatırtması mümkündür. Bu, keçmişdə də baş vermişdir. Bir neçə il öncə Çikaqoda bir hərəkət baş verdi və oraya ordu yeritdilər. Zənnimcə Klintonun dövrü idi; Buşdan öncəkilərin hakimiyyəti dövrü. Heç nədən çəkinmirlər, ordu yeridib xalqı əzirlər, vururlar, öldürürlər, ağır həbsxanalara salırlar. Bu hərəkət yatırıla bilər, amma məhv olmayacaq, kül altındakı od kimi qalıb bir gün elə şölələnəcək ki, hegemonluğun və kapitalizmin bu saman binasını yandırıb kül edəcək.

Kerman vilayətinin universitet tələbələri ilə görüşdəki çıxışdan: 2011

## Qərblilərin yalançılığı - insan hüquqlarının rüsvaylıq amili

Bu gün Qəzzə və Fələstin Qərbin rüsvay olduğu yerlərdir. Qərb insan hüquqlarını müdafiə iddiası ilə Qəzzədə ən böyük və ən faciəli hüquq pozuntusuna göz yumdu. Qərblilər ötən il uzun müddət Qəzzə xalqının xeyrinə və onları müdafiəyə dair bir söz də demədilər. Günlər ötürdü, biz qulaq asırdıq ki, görək Amerika heç, bəlkə Avropada insan hüquqları təşkilatlarından,

dırnaqarası azadlıq müdafiəçilərindən Qəzzə xalqının xeyrinə bir söz deyiləcək. Olmadı. Xalqın səs-küyü ucalandan sonra, müxtəlif ölkələrdə xalqlar səs ucaldıb yürüş edəndən, mitinq keçirəndən, danışandan və rüsvayçılıq yüksələndən sonra danışmağa başladılar; yalnız söz. Hamının gözü önündə baş verən belə bir əzəmətli faciədə Qərb Qəzzə xalqını əsla himayə etmədi. Bu günə qədər də Qərb həmin mövqedədir. Birləşmiş Millətlər Təşkilatı özünü rüsvay etdi. Amerika rüsvay idi, daha da rüsvay oldu. Qoldstonun məruzəsindən hamınız xəbərdarsınız. Bu gün sionizm rejiminin cinayətkar başçıları məhkəməyə çıxarılıb cəzalandırılmalıdırlar. Amma heç bir xəbər yoxdur, heç bir iş görülmür. İşğalçı və qondarma sionizm dövlətinə dəstəklər hətta artır da. Bunlar Qərbi rüsvay etdi. Amerika bu yeni hökumətlə və yeni prezidentlə dəyişiklik yaratmaq istədiyini iddia etdi. Dəyişiklik şüarı Amerikanın İslam regionundakı rüsvayçılığını və bədnamlığını bir qədər düzəltmək üçün idi. Amma düzəldə bilmədilər və bilsinlər ki, heç zaman düzəldə bilməyəcəklər. Çünki yalan danışırlar; xalqa açıq şəkildə yalan deməkdədirlər. Onlar çoxlu məsələlərdə yalan danışırlar. İslam Respublikasında olan bizlər daim bunların yalanlarını görür və eşidirik. Həqiqətləri əksinə göstərmək, reallıqları tərsinə göstərmək otuz ildir bizim gözümüz önündədir. Biz buna adət etmişik. Lakin dünya mühakimə yürüdəcək, tarix mühakimə yürüdəcək. Mən sizə deyirəm ki, bu gün Qərb sivilizasiyası Fələstin məsələsində böyük problem içərisindədir. Bu gün Qərbin liberal-demokratiya iddiası sual altına düşmüşdür. Yəni siz Fələstində müqavimətinizə görə Qərbin dünyaya hökmranlıq amili olan bir neçə yüz illik bir iddiasını

endirdiniz, puç etdiniz. Sizin göstərdiyiniz bu müqavimət bu qədər mühüm və əzəmətlidir!

Qəzzə konfransının açılış mərasimində iştirak edən Fələstinin cihad qruplarının rəhbərləri ilə görüşdəki çıxışdan: 2010.

# Dördüncü bölmə

## Kapitalizm quruluşu mənəviyyat istəyinə qarşı

### Bəşəriyyətin mənəviyyata və dinə ümumi təmayül əsri

Bu gün bəlkə də qərblilərin təsəvvürü, yaxud ən azı təbliğatları budur ki, Sovet Sosialist Respublikaları İttifaqı sosializm təcrübəsinin iflasına görə bu aqibətə düçar oldu: həmin iqtisadiyyat yanlış idi. Yetmiş ildən sonra anladı ki, bu iqtisadiyyat – kapitalizm düzgündür. Yəni sosialist quruluşun dağılmasını başqa bir təcrübənin adına yazır, yaxud kapitalist cəmiyyətlərin bünövrəsinin güclülüyünü bəyan etmək üçün bir təcrübə sayırlar. Bu səhvdir. Bu təhlil əsla düzgün deyil. Ümumiyyətlə bu məsələyə dəxli yoxdur. Məsələnin səbəbi başqa bir yerdə axtarılmalıdır. Səbəb dinlə düşmənlik və mənəvi imandan uzaqlaşmaqdır. Bu mənfi amil harada və nə qədər mövcud olsa, bir o qədər məhvə və dağıntıya səbəb olacaq. Əlbəttə, qeyd etdim ki, bunun sabah baş verməsini gözləmək olmaz. Başqa formada dinlə mübarizə aparan ölkələr də belə bir vəziyyəti gözləməlidirlər. Nəzərə çarpdığı kimi bu əsr inşallah bəşəriyyətin mənəviyyata və dinə ümumi təmayül əsridir.

598 Saylı Qətnamə üzrə Dövlət Komissiyasının üzvləri ilə görüşdəki çıxışdan: 1991.

### Dünyada mənəviyyatın inkişafı

Beynəlxalq hegemon sistemin siyasəti bu idi ki, dini və mənəviyyatı bütünlüklə xalqın həyatından çıxarsın, bəşər

cəmiyyətini dinsiz, imansız və ilahi dəyərlərə etiqadsız bir cəmiyyət kimi yetişdirsin. Bu yeni dövrdə isə həmin siyasətlərin tam əksi baş vermişdir. Xalqlar yalnız İranda və İslam ölkələrində dini inanclara qayıtmadılar, hətta dünya miqyasında və on illərlə dinin ziddinə yaşamış cəmiyyətlər arasında da dinə etiqad və mənəvi təmayül artmışdır.

Həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü mərasimində çıxışdan: 1990.

**Elm və siyasətin mənəviyyatdan ayrılmasının nəticələri olan müharibələr**

Avropada elm və siyasətin mənəviyyatdan və dövlətin əxlaqdan ayrılmasının nəticəsində bu iş baş verdi. Birinci və İkinci dünya müharibələri də həmin acı nəticələrdən idi. Kommunizm və repressiv marksist hökumətləri də elm və sənaye hərəkətinin mənəviyyatdan ayrılmasının acı nəticələrindən idi. Ailə ocağının dağılması, cinsi fəsad seli və ifratçı kapitalizmin tüğyanı hamılıqla həmin ayrılığın nəticələridir.

İmam Xomeyninin vəfatının on beşinci ildönümü mərasimində çıxışdan: 2004.

# Dördüncü fəsil

## Kapitalizm quruluşu qarşısındakı böhran və problemlər

### Birinci bölmə: Kapitalizm düşərgəsində böhranın səbəbləri

### Dünyanın hegemonluğun iradə və siyasətinin əksinə hərəkət etməsi

İndiki tarixi dönəm qəribə və ibrətli dövrdür. Bu dövrdə dünyanın böyük hadisələrindən ən təəccüblü və qəribə olanı budur ki, dünya ona hakim qüvvələrin iradəsinin, siyasət və tədbirlər istiqamətinin ziddinə hərəkət edir. Bu, Allah qüdrətinin əlamətidir. Əgər insan dünyanın indiki hadisələrinə açıq gözlə və diqqətlə baxsa, xalqların və bəşəriyyətin ümumi hərəkəti barədə fikirləşsə, ümumi prosesin dünyanın hakim qüvvələrinin istəyinin ziddinə olduğunu görəcək. Bu gün dünya quldurlarının şiddət tərənnümü konkret olaraq Amerikadır.

Bu söz əlbəttə, o demək deyil ki, dünyanın hegemon və istismarçı şəbəkəsi öz məqsədlərinə çatmaq üçün güc və zorakılıqdan başqa heç bir fəaliyyət göstərmir. Dünya hər yerdə hakim qüvvələrin zülm əlamətləri ilə doludur. Xüsusən elə adamlar zülmə və zorakılığa məruz qalırlar ki, hegemonluq onların tərəfindən müxalifət, ziddiyyət və devrilmə təhlükəsi duymuşdur; yəni əsasən dünya müsəlmanları. Lakin bütün bunlara rəğmən, inkişaf edən amillər İslam düşmənlərinin, müsəlmanların və məzlum xalqların düşmənlərinin qorxub çəkindikləri amillərdir.

Həzrət İmam Xomeyninin vəfatının ildönümündə iştirak edən xarici qonaqlarla görüşdəki çıxışdan: 1992.

**Amerika - Qərbin iqtisadi böhranının başlanğıc nöqtəsi**

Beynəlxalq aləmdə böyük və mühüm hadisələr baş verdi. Bunlar şübhəsiz, beynəlxalq siyasətlərdə dərin və güclü təsirlərə malikdir. Onlardan biri iqtisadi sahələrdə Amerikadan başlayıb Avropaya və digər ölkələrə, o cümlədən bizim regionumuzun ölkələrinə çatan nəhəng maliyyə problemi və iqtisadi böhrandır. Bu məsələ dünya xalqları üçün çox əhəmiyyətli məsələdir. Bu nəinki onların gündəlik həyatlarına və iqtisadi proqramlarına, hətta güman ki, onların iqtisadi nəzəriyyələrə və kapitalizm iqtisadiyyatına baxışlarına da dərin təsirlər buraxacaq.

Yeni il və Novruz bayramı münasibəti ilə müraciətdən: 2009.

**Dünyanın səksən ölkəsində xalqın kapitalizm əleyhinə dirənişi**

Bu gün bunlar Amerikanın, Qərb ölkələrinin, kapitalizm quruluşunun və dırnaqarası liberal-demokratiya - onun həm liberalı yalandır, həm demokraiyası - quruluşunun özündə iflasa uğramışlar. Bu gün Amerikanın bütün ştatlarının və dünyanın səksən ölkəsinin xalqları bu quruluşun əleyhinə müqavimət göstərir. Xalqı yatırtmaları mümkündür, lakin bu alov sönməyəcək; müdafiə edə bilmirlər, əlləri boşdur, dünya başqa istiqamətə gedir. Bilin ki, Allahın qüvvə və qüdrəti, İran xalqının rəhbərliyi və İslam bayrağı ilə haqqın batillə, tağutlarla, fironlarla və hegemonluq fironu ilə başlamış mübarizəsi hegemonluğun məhvinə qədər davam edəcək.

Şagird və tələbələrlə görüşdəki çıxışdan: 2011.

## Qərb iqtisadiyyatının qorxunc uçurumları

Siz deyə bilərsiniz ki, məsələn Amerikada, yaxud İngiltərədə bu ölkələrin əhalisinin nisbətinə görə yoxsul yoxdur. Bunu hesabalamaq lazım deyil. Baxmaq lazımdır ki, İngiltərə dövləti Hindistan yarımadasında nə qədər yoxsul yaratmışdır; yaxud Afrikanı və ya Latın Amerikasını müstəmləkəyə çevirən filan dövlət orada nə qədər yoxsul yaratmışdır; yaxud bu gün Amerika bütün dünyada malik olduğu iqtisadi təsir gücü ilə dünyada nə qədər yoxsul, aclıq və məhrumluq yaratmışdır. Meyar bunlardır. Əlbəttə, bu ölkələrin özündə də yoxsulluq, yoxsul və təbəqələrarası fərq olduqca çoxdur; ümumiyyətlə heyrətamizdir. Təəssüf ki, bəzən bizim statistikalarda yersiz, sadəlövh və yaxıngörən fikirlər müşahidə olunur ki, məsələn bizim ölkəmizdə iqtisadi fərqlər Amerikadan, yaxud filan yerdən çoxdur. Bunlar reallıqları bilməzlikdən deyilən sözlərdir. Onların reallıqlardan heç bir xəbərləri yoxdur. Xeyr, kapitalist ölkələrdə iqtisadi uçurum dəhşətli, təsəvvürolunmaz və dünyanın hər yerindən çoxdur. Bundan əlavə, onları o ölkələrin özündə ölçmək düzgün deyil, bütün dünya üzrə hesablamaq lazımdır. Çünki bunların təsir, güc və hərəkət dairəsi bütün dünyadır.

Dövlət Şurasının üzvləri ilə görüşdəki çıxışdan: 2004.

## Qərbin daxildən və xaricdən dağılması

Bu gün - üçüncü minilliyin ilk onilliyində deyirlər ki, onlar üçün şərait altmışıncı illərin (Vyetnam müharibəsi onilliyinin) şəraiti kimidir; lakin dağılma daxildəndir, əxlaqi dağılmadır, iman dağılmasıdır. Xalq və gənclər

üçün ortaq iman nöqtəsi yoxdur. Elm inkişaf edir, laboratoriyalar işləyir, elm, sənaye, atom və digər istehsallar inkişaf edir, amma milli kimlik günbəgün zəifləyir. Bunu onlar deyirlər. Bu, mühüm zərbədir. Biz gözləmirik ki, bunu Amerika prezidentinin jestlərində müşahidə edək, yaxud sözlərində buna dair etiraf eşidək; amma həqiqətdir. Əgər xarici dünyada bu zəifliyin əlamətini görmək istəsək, Amerikanın dünyadakı nüfuzunun zəifləməsinə baxmalıyıq; Amerikanın embarqoları dünyada güclü reaksiyalarla üzləşir; Amerikanın ümumi məsələlər barədə qərarları Avropada və digər yerlərdə dövlətlərin əks-reaksiyasına məruz qalır; Amerikanın qlobal iqtisadi seçimləri dünyada xalqların və siyasi qüvvələrin böyük etirazı ilə üz-üzə qalır.

Ərdəbil vilayətinin gəncləri ilə görüşdəki çıxışdan: 2000.

## Kapitalizm sisteminin özü böhran yaradandır!

Bu gün bütün dünya şahiddir ki, Qərbin kapitalizm sistemi hadisə və böhranlar qarşısında nə qədər aciz və zəifdir. Bu sistemin özü böhran yaradandır və böhran yarandıqda özünü müdafiə edə bilmir. Bu, Qərbin iqtisadi sistemidir. Onlar həmişə bu iqtisadi sistemlə fəxr etmişlər; kapitalizm iqtisadiyyatı ilə. Və min bir üsulla, min bir dillə bu sistemi yeganə iqtisadi proqram kimi xalqlara sırımağa çalışmışlar.

Mərivan əhalisi ilə görüşdəki çıxışdan: 2009.

## Dünya problemlərinin kökü qərblilərin materialist baxışındadır!

Başqa bir məsələ iqtisadiyyata qeyri-maddi baxışdır. Dünyada yaranan bu problemlərin çoxu iqtisadiyyata, pul

və sərvət məsələsinə maddi baxışa görədir. Dostların haqqında danışdıqları Qərb yayınmaları, çoxlu problemlər, istismarçılıq, müstəmləkə və bu kimi məsələlərin hamısı ona görədir ki, pula və sərvətə materialist baxış mövcud olmuşdur.

"Strateji düşüncələr" mövzusunda keçirilən ilk konfransda çıxışdan: 2010.

## Siyasi tənəzzülün Amerika iqtidarının zəifləmə əlamətlərindən olması

Amerikanın nüfuzu süquta doğru gedir. Soyuq müharibə dövründən və SSRİ-nin dağılmasından sonra onlar iddia etdilər ki, biz böyük dünya imperatorluğunun başçısı olmalıyıq. Lakin dünya hətta sözü keçən bir supergüc kimi də onların sözünü dinləmir. Qaz istehsalına dair İranla müqavilə bağlamış neft şirkətinin fəaliyyətini qadağan etdilər, dərhal bir Fransa şirkəti onun yerini tutdu. Qanun qəbul etdilər, fəryad qopardılar, yazdılar, amma faydası olmadı. Məsələ belədir. Amerikanın siyasi nüfuzu tənəzzülə uğramışdır. Bu, Amerika iqtidarının zəifləmə əlamətlərindən biridir.

Ərdəbil vilayətinin gəncləri ilə görüşdəki çıxışdan: 2000.

## Qərbin örnək yaratmaqda acizliyi

Bu gün dünyanın təbliğat şəbəkələri insanları azdırmaq üçün bütün dünyada nəsillərin gözü önündə daim örnəklər göstərirlər. Əlbəttə, örnəklər cazibəsiz və uğursuzdur, amma yenə əl çəkmirlər; insanları istədikləri tərəfə çəkmək üçün sənət adamı gətirirlər, yazıçı gətirirlər, içi boş və zahiri gözəl olan təmtəraqlı insanlar gətirirlər, daim puç və mənasız obrazlar gətirib nümayiş etdirirlər. Onlar

bunun üçün pullar xərcləyirlər. Gördüyünüz, eşitdiyiniz və bildiyiniz Hollivud filmləri və bu kimi işlərin əksəriyyəti məqsədlidir. Deyirlər ki, incəsənət siyasətdən və siyasi istiqamətdən uzaq olmalıdır, amma öz rəftarları bunun əksinədir. Dünya hegemonları incəsənəti, kinonu, filmi, şeiri, yazıçılığı, beyni, məntiqi və fəlsəfəni öz hegemon maraqları və istismarları üçün işə götürmüşlər. Bu gün dünya kapitalizminin timsalı olanlar - hərbi gücü Amerikadır, iqtisadi gücləri də Amerika dövlətinin arxasında dayanan şirkətlərdir - örnək göstərmək üçün bütün imkanlardan istifadə edirlər. Xalqların da əli boşdur, onların göstərdiklərinin qarşısına çıxarmağa örnək və nümunələri yoxdur.

Universitetlərin Elmi şuralarının Bəsic üzvləri ilə görüşdəki çıxışdan: 2009.

## Qərbin əxlaq və mənəviyyatdan günbəgün uzaqlaşması

Bu gün Qərbin liberal-demokratiya dünyasının böyük çatışmazlığı budur; zavodları çoxaltdılar, maşınları çoxaltdılar, elmin əhatəsini genişləndirdilər, lakin ictimai ədaləti təmin edə bilmədilər, insani əxlaq süquta uğradı. Bu mənim sözüm deyil. Məgər bu gün dünyada yayımlanacaq beynəlxalq bir tribunadan o ölkələrin xalqlarının hissinin ziddinə bir söz demək olar?! Bu onların öz sözləridir.

Bu gün əxlaq böhranı Qərb liberal-demokratiyasının yaxasını tutmuşdur. Bu gün cinsi böhran, iqtisadi böhran, əxlaqi böhran və ailə böhranı öz elmi inkişafları ilə tarixin gözünü qamaşdıran həmin ölkələrin problemləridir.

Bəşərin xoşbəxtliyi onun elminin inkişafı ilə hasil olmur. Elm xoşbəxtliyin vasitəsidir. Bəşərin səadəti

düşüncə aramlığında, ruh aramlığında, nigaranlıqsız həyatda, əxlaqi, mənəvi və maddi təhlükəsizliklə yanaşı olan həyatda və cəmiyyətdə ədalət hissindədir. Qərbdə bu yoxdur; nəinki yoxdur, hətta ondan günbəgün uzaqlaşırlar da.

Yəzd əhalisinin böyük toplantısındakı çıxışdan: 2008.

### Bir çox Qərb ölkələrində mövcud olan modern diktatura

Qərbdə geniş yayılmış demokratiya, Qərbin iflasa uğramış və rüsvay olmuş liberal-demokratiyası əslində xalqın seçimi deyil, sərvətlilərin seçimidir; hətta partiya üzvlərinin da seçimi deyil, partiyaların başçılarının seçmidir. Hökumətləri gətirib-aparan onlardır; böyük qərarlara bais olanlar onlardır. Böyük qərarların əksəriyyətində xalq səhnədən kənarda qalır, onlara heç kəs diqqət yetirmir; həm də onların başlarını iş və məşğuliyyətlərə o qədər qatıblar ki, bacarmır və istədiklərini söyləməyə macal tapmırlar.

Bu gün çoxlu Qərb ölkələrində və birinci növbədə Amerikada çox modern və mütərəqqi istibdad və diktatorluq hakimdir. Orada hökumətləri iş başına gətirməkdə xalqın ixtiyar və iradə sahibi kimi rolu yoxdur. Hər şeyi təyin edən, hər şeyi öz istədiyi məcrada hərəkət etdirən pul və kapital sahiblərinin gücüdür.

Həzrət İmam Xomeyninin vəfatının on səkkizinci ildönümü mərasimində çıxışdan: 2007.

# İkinci bölmə

## Kapitalizm quruluşunun ayıq xalqlar qarşısında acizliyi

### Qərblilər xalqların nifrət hədəfində

Hegemon dövlətlər, birinci növbədə on illərdir siyasi və kəşfiyyat üsulları ilə region hökumətlərini öz fərmanına itaətdə saxlamış və dünyanın bu həssas bölgəsinə iqtisadi, mədəni və siyasi hakimliyi üçün maneəsiz yol açdığını güman edən Amerika indi bu region xalqlarının ilk nifrət hədəfindədir. Əmin olmaq olar ki, bu inqilablardan yaranan quruluşlar heç zaman öncəki rəzil bərabərsizliklə razılaşmayacaq, bu regionun siyasi coğrafiyası xalqların əli ilə və onların tam izzət və istiqlaliyyəti istiqamətində formalaşacaq.

Əzəmətli Həcc konfransına müraciətdən: 2011.

### Xalqların oyanış və agahlığı

Dünyada hegemon və müdaxiləçi siyasi güclərin, yaxud iqtisadi kompaniyaların, yaxud xərcəngvari təbliğat qurumlarının və mənfəətini güdən nəhəng təbliğat şəbəkələrinin başında duran şəxslər bu gün də bu iki yoldan biri ilə xalqlara hökm və hegemonluq edirlər: ya xalqları xəbərsiz saxlayıb onların agahlığının qarşısını almağa çalışırlar - əgər agahlığa tam mane ola bilməsələr, həmin cəmiyyətdə onlar üçün mühüm olan xüsusi bir məsələdə insanların agahlığına və xalqların oyanışına mane olmağa çalışırlar - ya onları ümidsizliyə düçar edirlər. Bəzən bir xalq və bir cəmiyyət doğru yolda dözümsüzlüyə düçar olur. Bu dözümsüzlük də təlqin

olunan bir məsələdir; onu xalqlara təlqin etmək olur. Bilin ki, bu gün təbliğat şəbəkələrində xalqlara belə məsələləri təlqin etmək üçün milyardlarla dollar xərclənir; onları ya düzgün seçimdən, ya da düzgün və kamil dözümlülükdən uzaqlaşdırırlar.

13 Aban (4 Noyabr) münasibəti ilə tələbə və şagirdlərlə görüşdəki çıxışdan: 1998.

## Beynəlxalq hegemonluq xalqların imanından qorxur!

Bu gün beynəlxalq hegemonluq hər hansı bir xalqda olan dərin imandan qorxur və çəkinir. Bu gün dünyanın istismarçı və hegemon qurumları bilirlər ki, onların qarşısında dayanan imanlı, qeyrətli, bir sıra prinsip və dəyərlərə etiqadlı olan insanlardır. Onlar yalnız hegemonluğun istismarçılığı və hegemonluğu qarşısında dayanırlar. Düşmən bunlardan qorxur və onlara qarşı mübarizə aparır.

Şahid məktəblərinin əlaçı şagirdləri, nümunə direktor və müəllimləri, İslam İnqilabının Şəhid Fondunun məsul işçiləri, şəhid və müharibə əlillərinin hörmətli ailələri ilə görüşdəki çıxışdan: 1991.

## İslam inqilabı - kapitalizm dünyası üçün potensial təhlükə

İslam inqilabı qəfildən Qərb müstəmləkəsinin və kapitalizm dünyasının bütün varlığını və dəyər sistemini sual altına saldı, gələcəyini tamamilə təhdid etdi və qaranlıq göstərdi. Bu inqilab İslam inqilabı olduğundan nəticə etibarilə harada müsəlman olsa, bu inqilabın baş verməsi mümkündür. Sonra da onun nümunələrini Əfqanıstandan tutmuş İndoneziyaya, Malayziyaya, Misirə,

Tunisə və hətta dırnaqarası inqilabi quruluşu olan ölkələrə, məsələn Əlcəzairə və Liviyaya qədər ardıcıl şəkildə gördülər, bu İslamın oralarda baş qaldırıb meydan oxuduğunu və gələcəyi təsvir etdiyini müşahidə etdilər. Bunlar qorxuya düşüblər. İndi bütün kapitalist və hegemon dünya İslamın qarşısında dayanmaq üçün əl-ələ vermişlər.

Qum Elmi Hövzəsinin müəllim və tələbələrinin nümayəndə heyəti ilə görüşdəki çıxışdan: 1989.

## İranı geri qovmaqda kapitalizm düşərgəsinin zəifliyi

Kapitalizm və müstəmləkə düşərgəsi özünün bütün siyasi gücü ilə, özünün bütün maliyyə və iqtisadi qüdrəti ilə və özünün bütün təbliğat maşınları ilə İran xalqını geri çəkilməyə və təslim olmağa vadar etmək üçün təzyiq göstərməkdədir. Onlar İran xalqını yalnız nüvə hüququndan yox - nüvə hüququ İran xalqının hüquqlarından biridir – həm də izzət haqqından, müstəqillik haqqından, qərar vermə və elmi inkişaf haqqından geri çəkilməyə vadar etmək istəyirlər. İran xalqı bu gün elm və texnologiya inkişafının magistralına çıxmışdır və özünün tağutlar dövründəki ikiəsrlik geriliyini düzəltmək istəyir. Bunlar əl-ayağa düşmüşlər və dünyanın bu həssas nöqtəsində yerləşib İslamın bayraqdarı kimi tanınan İran xalqını bu uğurlardan saxlamaq istəyirlər. Bu səbəbdən təzyiq göstərirlər, lakin İran xalqı möhkəm dayanmışdır.

Şiraz əhalisi ilə görüşdəki çıxışdan: 2008.

## Qeyri-müsəlman xalqların İslam şüarlarına cəzb olunması

Müsəlman xalqlar İslam inqilabının səhnəyə gəlməsindən öncəyə qədər ədalət adının solçu və sosialist

düşərgədə, rifahın və maddi inkişafın isə sağçı düşərgədə, yəni kapitalizm quruluşunda olduğunu güman edirdilər. İslam səhnəyə gəlib xalqa maddi rifah və ictimai ədalətlə yanaşı olan bir həyat vəd etdi və onlar bu şüara və bu möhtəşəm hərəkətə cəzb olundular. Odur ki, bütün İslam dünyasında İslam inqilabının və bu inqilabın imamının adı xalq üçün gözəl və parlaq bir günəşə çevrildi. İnqilabın ilk illərində bizim İslam dünyasında geniş təbliğatımız olmasa da, İslam Respublikası quruluşundan müsəlmanların yaşadığı ucqar bölgələrə kim səfər etdisə, imamın, inqilabın və İslam Respublikası quruluşunun adının və bu uca bayrağın müsəlman xalqların qəlblərində yer açdığını gördü. Hətta bir çox qeyri-müsəlman xalqlar da bu şüara görə İslama cəzb olundular. Biz bu şüarlara əməl etməliyik.

Rəfsəncan əhalisinin böyük toplantısındakı çıxışdan: 2005.

**İslamın baş qaldırması - kapitalizm quruluşunun qanunsuz istifadəsi üçün həyəcan siqnalı**

Kapitalist və hegemon düşərgə İslam qüvvəsinin baş qaldırmasından vahiməyə düşmüş və çox nigaran olmuşdur; onu özünün bütün dünyanın həyati imkanlarından qanunsuz istifadəsi və hətta öz həyatı üçün bir həyəcan siqnalı bilir. Kim bu fitnə-fəsadlı düşərgənin əsas mərkəzi olan Amerikanın qüdrətli İslam həyatının timsalı olan İslam quruluşu ilə barışmasının və ona kömək etməsinin mümkünlüyünü təsəvvür etsə, çox sadəlövhcəsinə düşünmüşdür.

Beynəlxalq Hegemonluqla Milli Mübarizə Günü münasibəti ilə müraciətdən: 1990.

## İslam oyanışı - Qərb kapitalizmi qarşısında məğlubedilməz qüvvə

Bu gün Qərb dünyası, Amerika və Qərb təfəkkürünün ideoloqları (sionistlər və Qərbin kapitalist mərkəzləri) yaxşı bilirlər ki, Fələstin xalqının əzəmətli hərəkəti onların İslama təmayülündən irəli gəlir. İslamı əsas saydıqlarına görə cəsarət tapmış və mücahidliyə sözün həqiqi mənasında könül vermişlər. Harada bir xalq belə ruhiyyə əldə etsə, heç bir hərbi və qeyri-hərbi qüvvə onlarla qarşılaşmağa və onları əzməyə qadir olmaz. Bunu yaxşı anlayırlar. İslam dünyasının bütün hadisələri bu reallığı təsdiq edir. Bu gün İslam dünyasında yaranmış İslam oyanışı və hətta İslam hərəkatı aydın bir həqiqətdir; bunu heç kəs inkar edə bilməz.

Quruluşun məsul şəxsləri və xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 2005.

## İslam inqilabının mahiyyəti - hegemon quruluşların ilbizi ilə müxaliflik

Xalqın möhkəm imanı əsasında İslam quruluşunun yaranmasından sonra onun qarşısında böyük qlobal problem peyda oldu. Nə üçün? Çünki bu quruluş təbii olaraq dünyanın hegemon quruluşlarının təhlükəli ilbizləri ilə vuruşurdu. Bu vuruşmanın mənası o deyildi ki, biz Amerika, İngiltərə, yaxud başqa bir ölkə ilə müharibə etmək istəyirdik. Siz gənclər bilin ki, İslam inqilabının 25 illik dövründə hətta bir gün də inqilabın məsul şəxslərinin beyninə hansısa bir ölkə ilə müharibə təsəvvürü gəlməyib. Xeyr, bu problem inqilabın kimliyindən və mahiyyətindən qaynaqlanır. Həssas coğrafi mövqeyə və dərin mədəniyyətə malik bir İslam ölkəsi meydana çıxdıqda, ortaya bir ideya qoyub onu canlandırmaq üçün özünün

bütün səyini göstərirsə və onun simasında uğur əlamətləri aşkar olunursa, təbii surətdə bütün regionda hegemon maraqları təhlükəyə salır. Buna görə də o günün hegemon qurumları – bir tərəfdə kapitalizm və liberalizm düşərgəsi və digər tərəfdə sosializm iddiasında olan ateist diktatura düşərgəsi İslam inqilabı ilə qarşı-qarşıya dayandı.

Zəncan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdəki çıxışdan: 2003.

## Təxribat xəyalı - Qərbin daxili problemlərinə qarşı tədbir yolu

Amerika rəhbərlərinin siyasətlərindən biri budur ki, Amerika xalqını mövcud daxili problemlərdən, mövcud ayrıseçkiliklərdən, qəribə təbəqə fərqlərindən və xalqın digər çoxlu problemlərindən yayındırmaq üçün həmişə xaricdə bir düşmənləri olsun. Bunu anlamışıq və xəbərimiz var. Lakin İranı böyütmək məsələsi Amerikanın istismarçı siyasətiçilərinin təfəkküründə köklü bir məsələdir və həqiqətən belədir. Onların varlığı təcavüzkarlığa, istismarçılığa və dünyanın müxtəlif yerlərinə əl uzatmalarına görədir. Hökumətləri qane, xalqları da sakit etdilər.

Şiraz universitetlərinin müəllim və tələbələri ilə görüşdəki çıxışdan: 2008.

## İslam ölkələrinin idarəsinin Qərbin əlindən xaric olması

Beynəlxalq hegemon qüvvələr həqiqi timsalı İslam Respublikasından ibarət olan İslam hərəkəti ilə mübarizədə özlərinin son səylərini göstərməkdədirlər. Bir çox sahələrdə səy və tədbirləri dalana dirənmiş və iş nəzarətlərindən çıxmışdır. Onların dünyanın ətrafına

çəkdikləri, dünyanı hasara aldıqları bu kəmər yer üzünün ən həssas regionu olan Orta Şərqdə qırılmış, yaxud ən azı zəifləmişdir. Mənim şəxsi fikrim budur ki, qırılmış və əllərindən çıxmışdır.

Universitet müəllimləri ilə görüşdəki çıxışdan: 2010.

**İslam oyanışı - Qərbin hökmranlıq və təhqir tilsiminin qırılması**

İslam dünyası özünün yanmış və əziyyət görmüş çöhrəsində İslam oyanışı mehini hiss edir. İslam dünyasının hər bir yerində, xüsusən də mücahid və başıuca İranda, həmçinin Fələstində və Livanda onun əlamətlərini öz gözü ilə görür. Ümid çırağı hər yerdə gənclərin qəlbini aydınlaşdırmış, Qərbin təhqir və hökmranlıq tilsimini sındırmışdır.

Hörmətli Allah evinin ziyarətçilərinə müraciətdən: 2001.

**İslam oyanışı - qanunsuz maraqlar üçün təhdid**

İslam Respublikası quruluşunun düşməni beynəlxalq hegemon şəbəkədir, yalnız Amerika hökuməti deyil. Bu gün demokratiya adı ilə məşhur olan bu ölkələrdə, Amerikanın özündə və sionist şəbəkəsi ilə güclü rabitəsi olan digər ölkələrdə hökumətləri qurub-yıxanlar dünyanın zalım iqtisadi güc başçılarıdır. Bu nüfuzlu və qüdrətli beynəlxalq hegemon şəbəkə ilə rabitədə olan hökumətlər İslam hərəkatı və İslam oyanışını öz maraqlarına təhlükə bilirlər, bu qanunsuz maraqların təhdid olunduğunu görürlər. Düşmən onlardır. Bu düşmən bu xalqla mübarizə üçün bütün mümkün vasitələrdən istifadə etmiş və aciz qalmışdır. Siz görün bu otuz ildə hansı işi görə bilərdilər və görmədilər. Hansı işi görmədilərsə, ziyanını və

qazancını, faydasını və zərərini ölçüb faydasının olmadığını və zərərinin daha çox olduğunu gördüklərinə görə görmədilər. Əgər hansısa işi görməmişlərsə, hesablayıb onlar üçün zərərli olduğunu bilmişlər.

Kazirun rayonunun əhalisi ilə görüşdəki çıxışdan: 2008.

### Həcc- vəhdət simvolu və əcnəbi qüvvələrdən ehtiyacsızlıq amili

Həcc həmçinin müsəlmanların vəhdət və birlik simvoludur. Allah-Taala bütün müsəlmanları, onlardan imkanı olan hər bir şəxsi xüsusi bir zamanda xüsusi bir yerə çağırır. Birgə yaşayış, nizam-intizam və qarşılıqlı uyğunluq tərənnümü olan əməl və hərəkətlərlə onları gündüz və gecələrdə bir-birinin kənarına toplayır. Bunun görünən ilk təsiri onların hər birinə vəhdət hissini aşılamaq, müsəlmanların birliyinin əzəmət və möhtəşəmliyini göstərmək və onların hər birinin qəlbini əzəmət hissi ilə doyurmaqdır. Müsəlman bu əzəmət hissi ilə yalqız şəkildə bir mağarada yaşasa da, tənhalıq hiss etmir. Bu həqiqəti hiss edən müsəlmanlar İslam ölkələrinin hər birində İslama düşmən düşərgə ilə, yəni kapitalizm dünyasının siyasi və iqtisadi istismarı, onun muzdur və müttəfiqləri və onların fitnələri ilə mübarizə şücaəti əldə edirlər, Qərb müstəmləkəçilərinin hücum etdikləri xalqlar qarşısında ilk silahı olmuş və indi də olan təhqir ovsunu onlara təsir etmir. Müsəlman hökumətlər bu əzəmət hissi ilə öz xalqlarına güvənir, özlərini əcnəbi qüvvələrə güvənməkdən ehtiyacsız bilirlər.

Hörmətli Allah evinin ziyarətçilərinə müraciətdən: 1991.

## Güclü müqavimət - xalqların uğrunun yeganə yolu

Beynəlxalq istismarçı və hegemon qüvvələr sözsüz ki, tarix boyu həmişə olmuşlar, lakin elm və sənayenin inkişafı və modern rabitə imkanları səbəbindən bu istismar asanlaşmışdır. Buna görə amerikalıların bütün dünyaya tamah saldığını görürsünüz. Maraqlarının filan yerdə təhlükəyə düşməsi bəhanəsi ilə müdaxilə edirlər. Sanki onların maraqları bütün dünyanın maraqlarından üstündür, xalqların maraqlarından üstündür. Bu hegemonluğun, quldurluğun, qanmazlığın və haqnaşünaslığın qarşısında necə hərəkət etmək lazımdır? İki cür hərəkət vardır: biri təslim olmaq, biri isə müqavimət göstərmək. Dünya hegemonları qarşısında təslim olmaq hegemonu hegemonluğa həvəsləndirir. Xalqların, dünya siyasətçilərinin, müxtəlif cəmiyyətlərin ziyalılarının beynəlxalq hegemonluq qarşısında təslim olması onları inkişafa və daha artıq hegemonluğa həvəsləndirir. Xalqlar üçün birdən artıq həqiqi yol qalmır və o da müqavimətdir. Əgər bir xalq hegemonların və bu gün Amerikanın hegemonluq şərini dəf etmək istəyirsə, onun qarşısında çox qüdrətlə və möhkəm dayanmalıdır.

Həzrət İmam Xomeyninin vəfatının 19-cu ildönümü mərasimində çıxışdan: 2008.

## Xalqların mübarizələri - hegemon sistemin beynəlxalq diktaturasına maneə

SSRİ-nin dağılmasından sonra həmin diktatura Amerika və Qərb blokunun xeyrinə çoxalmışdır. Mən iki-üç beynəlxalq toplantıda çıxış edərkən "beynəlxalq istismar" başlığı ilə bu məqam üzərində dayanmışam. Bu gün hiss edirəm ki, "beynəlxalq istibdad", yaxud "beynəlxalq diktatura" terminlərini işlətmək daha münasibdir. Bunlar

dünya xalqlarına qarşı diktatorluq edirlər və bu, bəşəriyyətin bugünkü böyük bəlasıdır. Xalqlar özlərini iki vəziyyətdən kənarda saxlaya bilməzlər: Ya gərək təslim olsunlar və təəssüf ki, hökumətlər bunu istəyirlər; talansınlar, onlar üçün gələcək qalmasın və beləliklə dünya miqyasında həmin müstəmləkə və diktatura prosesinin inkişafına kömək etsinlər. Başqa yol isə budur ki, xalqlar ayağa qalxıb mübarizə aparsınlar. Kiminlə mübarizə aparsınlar? Mübarizə tərəfi eyni cinsdən olsa da müxtəlifdir. Beynəlxalq diktaturanı gücləndirən qurum və cəhətlə mübarizə aparmaq lazımdır; bəzən bir hökumətlə, bəzən başqa bir hökumətlə, bəzən Amerikanın özü ilə, bəzən də Fələstin və Livanda olduğu kimi mücahid və fədakar üsullarla. Bunlar xalqların mübarizələridir.

13 Aban (4 Noyabr) günü münasibəti ilə şagird, tələbə və müəllimlərlə görüşdəki çıxışdan: 1992.

## Ayıq və özünü dərk edən xalqlar - kapitalistlərin yolunun səddi

Dünyanın hər hansı bir yerində bir xalq oyansa, bir hökumət özünüdərkə nail olsa, bir xalq öz maraqlarını təmin etmək və hegemonların əlini kəsmək fikrinə düşsə, həmin böyük kapitalistlərdən və sionistlərdən ibarət olan beynəlxalq güc mərkəzi o yeri və o hərəkəti ortadan götürməyə çalışır. Bu çox zaman uğurlu alınır, bəzən də yox. Məsələn İran xalqı və İslam inqilabı barədə xalqın iradə və imanına, mübariz və mömin gənclərinin göstərdiyi həmişəyaşar örnəklərə görə uğurlu alınmadı və bu günədək məğlubiyyətə uğramışlar.

Qum əhalisi ilə görüşdəki çıxışdan: 2003.

## İslam mədəniyyəti ilə mübarizədə Qərbin problemləri

Onların mədəni məqsədləri də var; İslam mədəniyyətinə kin bəsləyir və düşmənçilik edirlər. İslam mədəniyyəti Avropa ziyalılarının görüşlərini tənqid etmiş və Qərbin ucaltdığı liberal-demokratiya bayrağını şübhə altına salmışdır. İslam mədəniyyəti bir milyard bir neçə milyonluq böyük müsəlman cəmiyyətində müstəqillik ruhuna rəvac verir. Strategiya, neft mədənləri və yeraltı sərvətlər baxımından dünyanın ən həssas regionunda bu işin daha böyük təsiri var. İslam mədəniyyəti bu böyük toplumu özünün yenidən dirçəlişi fikrinə salmışdır. Buna görə ona kin bəsləyir və onu əzmək istəyirlər.

Sistan və Bəlucistan vilayətinin gəncləri ilə görüşdəki çıxışdan: 2003.

## Dünyada liberal-demokratiya təməllərinin silkələnməsi

Bu gün dünyada təzad mövcuddur. İran xalqı müsəlman və region xalqlarının, o cümlədən Asiya xalqlarının, Afrika xalqlarının, Latın Amerikası xalqlarının, Orta Şərq regionu xalqlarının nəzərində haqqı və ədaləti müdafiə edən və hegemonluğun qarşısında dayanan şücaətli bir xalqdır; İran xalqını belə tanıyırlar. Onlar İran xalqına pərəstiş edirlər, amma həmin xalq və İslam Respublikası quruluşu hegemon qüvvələr tərəfindən insan hüquqlarını pozmaqda ittiham olunur, dünyanın təhlükəsizliyini pozmaqda ittiham olunur, terrorçuluğu dəstəkləməkdə ittiham olunur. Bu təzaddır. Xalqların baxışı ilə böyük güclərin istəyi arasında yaranan bu təzad beynəlxalq istismarçı şəbəkə üçün təhdiddir. Bunlar xalqlardan günbəgün uzaqlaşırlar. Bu, Qərb liberal-demokratiyasının

təməlini çürüdərək dəlik açmışdır və bu dəlik günbəgün genişlənir. Hər halda, hegemonluğun təbliğatı bir zamana qədər həqiqətləri gizlədə bilər, həmişə gizlədə bilməz. Xalqlar günbəgün ayılırlar. Siz baxın, İran xalqının prezidenti Asiya, Afrika, Cənubi Amerika ölkələrinə səfər edəndə yerli xalqlar onun xeyrinə şüar verir, yürüş keçirir və dəstək bildirirlər. Amerika prezidenti də Amerikanın arxa bağçası olan Cənubi Amerika ölkələrinə səfər edir, xalqlar onun gəlişi münasibəti ilə bayrağını yandırırlar. Bu, bu gün Qərbin və birinci növbədə Amerikanın bayraqdarlığını iddia etdiyi liberal-demokratiya təməllərinin silkələnməsidir. Onların istəkləri ilə xalqların meyli və müşahidələri arasındakı bu təzad günbəgün çoxalır.

İmam Rzanın (ə) müqəddəs məqbərəsinin ziyarətçilərinin toplantısındakı çıxışdan: 2007.